www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24-25 dekabr 2016-cı il Şənbə № 287 (6608) Qiymət 60 qəpik

**Xəbər**

## Moskvada azərbaycanlı ata və oğulu yandırdılar

yazısı səh.14-də

**Gündəm**

### Bakının başlatdığı "Sülh Platforması"ndan İrəvana üç mühüm zərbə



**Zahid Oruc:** "Erməni birliyi" haqda təbliğat iflasa uğrayır, Sərkisyanın "iki xalq dinc yanaşı yaşa bilməz" hökmü puç olur"

yazısı səh.9-da

### Prezidentin 55 yaşı münasibətilə YAP böyük konfrans keçirəcək

yazısı səh.5-də

### Qarabağ caniləri bir araya gəlir-Ermənistan cəmiyyəti kimi seçəcək?

yazısı səh.9-da

### Cənubi Qafqazda hansı ölkədən daha çox mühacir var?

yazısı səh.10-da

### Təhsil Nazirliyi internat məktəbində Yeni il şənliyi təşkil etdi

yazısı səh.15-də

### Həbs olunan korrupsioner məmurların "məsum" obrazları...

yazısı səh.4-də

### Yeni ildə əfv sərəncamı olmaya bilər

yazısı səh.6-da

### Bakının Baş Planı - 283 milyardı haradan tapaq...

yazısı səh.12-də

### Dollar qıtlığı ərzaq və dərman qıtlığı yarada bilər - xəbərdarlıq

yazısı səh.6-da

### İŞİD ən təhlükəli silahını - yeniyetmə terrorçuları meydana çıxarır

yazısı səh.11-də

### Qaz və işığın limitinin artırılması ilə hər bir vətəndaş ildə təxminən 44 manat qənaət edəcək

yazısı səh.12-də

## "Qaz müharibəsi"ndə mühüm gəlişmə

# KREMLİN ANTİAZƏRBAYCAN PLANI - ABŞ-DAN İLGİNC XƏBƏRDARLIQ

Rusiya enerji daşıyıcıları məsələsindən Azərbaycanı təcrid etmək üçün yararlana bilər; "Türk axını" Azərbaycana təhlükədirmi?; 2017-ci il əsas suala aydınlıq gətirməlidir...




yazısı səh.8-də

## Həbsdəki şəriklərindən şeyxə və onun deputat qardaşına növbəti ağır ittihamlar

İş adamı Müğdət Həşimov məhkəmədə sensasion ifadə verdi; "Ölkənin dini lideri məni və ailəmi ağır vəziyyətə salıb"

yazısı səh.3-də



*Maksim Musayev:*

**"İcra başçısı aptеki olmayan Xızıda özünə 3 villa tikdirib; o, prezidentə xəyanət edir"**

yazısı səh.7-də



*Qabil Hüseynli:*

**"İran müstəqil Azərbaycanı həzm edə bilmir, onun üçün İsrail bir bəhanədir"**

yazısı səh.10-da



*"Səbuhi Rəhimli:*

**"2017-ci ildə hakimiyyət islahatlara gedəcək, Xoruz ili daha gərgin olacaq"**

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016




# Prezident İlham Əliyev Adil Əliyevə fəxri fərman verdi

**Milli Olimpiya Komitəsində 2016-cı ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Dövlət başçısı İlham Əliyev tədbirdə çıxış etdikdən sonra 2016-cı ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edib.**

Dövlət başçısı Olimpiya çempionu Radik İsayevə və Rio Olimpiadasında yarışların idarə olunmasında göstərdiyi yüksək peşəkarlığa görə beynəlxalq dərəcəli hakim Hicran Şərifova Milli Olimpiya Komitəsinin "Olimpiya" ordenlərini təqdim edib.

Azərbaycanda qeyri-Olimpiya idman növlərinin inkişafında xüsusi xidmətlərinə görə Nurlan Aslanov, Bəxtiyar Abbasov, Ayaz Məmmədov, Vasif İsmayılov, Şəmsi Bayramov, Ramal Aslanov, Adil Əliyev, Zaur Axundov, Nəriman Quliyev və Emin Hacıyev Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2016-cı ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim edib.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edib, dövlət başçısına fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycana qarşı kəşfiyyat aparmaqda şübhəli bilinən şəxslər müəyyən edilib

**Bu il 2015-ci il ilə müqayisədə 7,2 dəfə çox narkotik vasitənin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb. APA-nın məlumatına görə, bu barədə Dövlət Sərhəd Xidmətinin 2016-cı ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat müşavirəsində bildirilib.**



Qeyd olunub ki, 2016-cı ildə Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 7 Azərbaycan, 1 əcnəbi vətəndaş, məxfi əməkdaşlığa cəlb olunmuş 4 Azərbaycan vətəndaşı müəyyən edilib.

Həmçinin xaricdə münaqişə zonalarında döyüşmüş 8 Azərbaycan vətəndaşı saxlanılıb, qanunsuz miqrasiya ilə məşğul olan 6 qrup, qaçaqmalçılıq, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 5 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilib.

Habelə sərhəd rejimini pozduqlarına görə 13 min 248 nəfər, axtarışda olan 4590 nəfər, dövlət sərhədini pozduqlarına görə 503 nəfər saxlanılıb.

Hesabat dövründə 49 milyon 319 min manat dəyərində qaçaqmalın dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb, bu da 2015-ci il ilə müqayisədə 8,3 dəfə çoxdur.

2015-ci il ilə müqayisədə 7,2 dəfə çox narkotik vasitənin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb (2015-ci ildə 165 kq 185 qram narkotik vasitə tutulduğu halda, 2016-cı ildə bu göstərici 1 ton 189 kq 997,7 qram oluub).



# İsgəndər Həmidova ağır itki üz verdi

**Sabiq daxili işlər naziri İsgəndər Həmidova ağır itki üz verib.**

Musavat.com xəbər verir ki, onun həyat yoldaşı Rəna xanım dekabrın 23-də, səhər saatlarında dünyasını dəyişib. Rəna Həmidova xeyli müddət idi ki, ağır xəstəlikdən əziyyət çəkirdi. Onun onkoloji xəstə olduğu bildirilir.

Allah rəhmət eləsin.




# KİVDF jurnalistləri mükafatlandırdı

**Dekabrın 23-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə elan etdiyi yazı müsabiqəsinin qaliblərinin *(2-ci və 3-cü yerlər)* mükafatlandırılması mərasimi keçirilib.**

**KİVDF-nin icraçı direktoru Vüqar Səfərli** tədbirdə bildirib ki, rəhbərlik etdiyi Fond 2016-cı il ərzində ayrıca olaraq 3, müxtəlif dövlət və hökumət qurumları ilə birlikdə isə 7 jurnalist yazıları müsabiqəsi keçirib. Onlardan üçü Fond tərəfindən keçirilib, digər 7 müsabiqəni isə KİVDF Mədəniyyət və Turizm Nazirliyi, Nizami, Suraxanı rayon və Gəncə şəhər İcra hakimiyyətləri, "Azərsu" və "Azərişıq" ASC-lərlə birgə keçirib.

V.Səfərli deyib ki, bu il "Multikulturalizm ili" ilə əlaqədar olaraq Fond Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə iki müsabiqə keçirib. Bundan başqa, Fond Xaçmaz və İsmayıllı rayonlarında da tədbirlər təşkil edib.

V.Səfərli sonra qeyd bildirib ki, bu il KİVDF-nin elan etdiyi müsabiqələrdə ümumilikdə 806 jurnalist iştirak edib. Onlardan 445 jurnalist qalib olub, diplomlar və pul mükafatları ilə təltif olunublar.

V.Səfərli KİVDF-nin müsabiqələrdə qalib olmuş ən yaxşı yazılardan ibarət "Sözün Zirvəsində" kitabının ikinci cildini təqdim edib. İndiyə qədər 100 qalib yazının kitab halında çap olunduğunu deyən KİVDF rəhbəri bildirib ki, bu il kitabın ikinci cildi çapdan çıxıb. İkinci cilddə 57 müəllifin yazısı var.

KİVDF rəhbəri qeyd edib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilən müsabiqəyə 160 yazı daxil olub. Həmin yazılardan 114-ü qalib elan olunub.

Sonra yazıların qiymətləndirilməsində iştirak edən ekspertlərdən Cahangir Məmmədli, Müşfiq Ələsgərli, Vüqar Rəhimzadə, deputat Hikmət Babaoğlu çıxış edib fikir və təkliflərini bildiriib.

Tədbirin sonunda müsabiqənin qalibləri mükafatlandırılıb.

**Qaliblər sırasında "Yeni Müsavat"ın redaktoru Elşad Məmmədli və müxbiri Etibar Seyidağa da var.**

# Biləsuvarda baş verən insidentdə 9 polis əməkdaşı xəsarət alıb

**Dekabrın 22-də saat 18.00 radələrində Biləsuvar rayonunun ərazisində Cəbrayıl rayonundan məcburi köçkün düşmüş vətəndaşlar üçün tikilmiş qəsəbələrdə yaşayan sakinlərin bir qrupu istifadə etdikləri elektrik enerjisi haqqının ödənilməməsi tələbi ilə Cəbrayıl Rayon İcra Hakimiyyətinin inzibati binasına doğru yürüş ediblər.**

Musavat.com-un xəbərinə görə, Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin birgə məlumatında bildirilir ki, bununla əlaqədar ictimai qaydanın kobud şəkildə pozulmasının qarşısının alınması məqsədilə həmin əraziyə cəlb olunmuş asayişi mühafizə qüvvələri razılaşdırılmamış aksiyanın iştirakçılarını intizama dəvət etsələr də, onlar tabeçilik göstərməyib, xidməti vəzifələrini yerinə yetirən 9 polis əməkdaşına daş və ağac parçaları ilə müxtəlif dərəcəli bədən xəsarətləri yetirib, habelə 1 xidməti avtomobilin şüşələrini sındırıblar.

Görülmüş operativ tədbirlərlə hüquqazidd əməllərin qarşısı alınıb, hadisənin fəal iştirakçılarından olan Cəlal Quliyev, İlkin İsgəndərov və Gülağa Alməmmədov saxlanılıblar.

Xəsarət almış 9 əməkdaşdan 6-na ilkin tibbi yardım göstərilib, 3-ü isə xəstəxanalara yerləşdirilib.

Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 186.2.2-ci (Əmlakı qəsdən məhv etmə və ya zədələmə), 233-cü (İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2-ci *(Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.




# "Azərişıq" Tovuzda yeni inşa etdiyi ofis binasını istifadəyə verdi

"Azərişıq" ASC artıq Azərbaycanın bütün rayonlarında köklü dəyişikliyə nail olub. Bu barədə müsavat.com-a qurumun mətbuat xidmətindən məlumat verilib. "Qərb RETSİ-nin struktur tərkibinə daxil olan Tovuz Elektirik Şəbəkələrində istehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı üçün 110-35-10(6)-0.4 kV-luq şəbəkələrin yenidən qurulması, əsaslı və cari təmiri məqsədi ilə xeyli işlər görülüb" - deyə xəbərdə qeyd edilir:

"Azərişıq" ASC tərəfindən 2016-cı ildə Tovuz rayonunda 26 ədəd KTM quraşdırılaraq istifadəyə verilib. Bütövlükdə isə onların sayı 34 ədəddir.

"Azərişıq" ASC Tovuz rayonunda istehlakçıların keyfiyyətli, dayanıqlı, təhlükəsiz elektrik enerjisi ilə təminatı üçün 2017-ci ildə də quruculuq işlərini davam etdirəcək. 2017-ci ildə 1 ədəd 35/10 kV-luq yarımstansiyanın tikilməsi, "Qovlar" və "Əhmədabad" yarımstansiyalarının təmiri və 20 ədəd KTM-in quraşdırılması nəzərdə tutulub. Bundan başqa 12 ədəd hava xətləri SİP-ləşdiriləcək və istismara yararsız elektrik dayaqları yeniləri ilə əvəzlənəcək.

Hazırda Tovuz şəhərində Elektrik Şəbəkəsi üçün 200 kv.m sahəsi olan "Azərişıq"ASC-nin daxili vəsaiti hesabına yeni inşa edilmiş ofis binası istifadəyə verilib.

İki mərtəbədən ibarət ofis binasında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. Energetika sahəsinin avadanlıqları ilə bərabər kompüter texnikası və internetlə təmin edilib. Ayrı-ayrı fəaliyyət sahələrini nəzərə alaraq burada abonentlərin ərzə və şikayətlərinin qəbulu, satış, qəza xidməti, maliyyə-mühasibatlıq məsələləri üçün xüsusi otaqlar yaradılıb. Elektrik Şəbəkəsinin nəqliyyat təsərrüfatı da yenidən qurulub. İnzibati binanın ətrafında abadlıq işləri aparılıb.

Yeni inşa edilmiş ofis binasının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak edən Tovuz Rayonu İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və "Azərişıq" ASC sədrinin müavini Vüqar Əhmədov son illər ölkənin hər yerində elektrik enerjisi təchizatı sisteminin yenidən qurulduğunu, rayon, şəhər, qəsəbə və kəndlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təchizatı istiqamətində məqsədyönlü işlər aparıldığını qeyd ediblər. Bildirildi ki, yaşayış məntəqələrinin,yeni açılan iş yerlərinin səmərəli və təhlükəsiz elektrik enerjisi ilə təmin olunması, şəbəkələrdə həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcək".

**Hazırda "Azərişıq" ASC tərəfindən regionlarda yenidənqurma işləri sürətlə davam etdirilir. 2017-cı il ərzində daha bir neçə rayonda abonentlərə xidmət göstərən bu cür yeni tipli ofislər tikilərək istifadəyə veriləcək.**




# "Nar"dan "Smartfon al, bayram et!" kampaniyası

**"Nar" və "World Telecom" mağazalar şəbəkəsi daha bir müştərək kampaniyaya start verdilər. Belə ki, 31 yanvar 2017-ci il tarixədək "World Telecom"-dan nağd və ya 50% ilkin ödənişlə istənilən smartfonu almış hər bir kəs "Nar"-dan bonuslar qazanır.**

**Qeyd edək ki, istənilən Azərbaycan vətəndaşının yararlana biləcəyi kampaniya çərçivəsində "Nar"-dan bonus olaraq nömrə, 6 ay arzində 250 AZN danışıq balansı və 1,5 GB internet trafiki təqdim olunur. Bonusların aktiv olması üçün balans hər ay birdəfəyə ən az 5 AZN artırılmalıdır.**

**Kampaniyaya daxil olan smartfonlar barədə məlumatı "World Telecom"-un çağrı mərkəzinə zəng etməklə (070 5550555) və ya internet səhifəsinə daxil olmaqla (w-t.az) əldə etmək mümkündür.**

**"Nar" tarif və kampaniyaları barədə ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

**Şeyxülislam Hacı Allahşükür Paşazadə və onun deputat qardaşı Cavanşir Paşazadənin şəriki olmuş Müğdət Həşimovun məhkəmə prosesi davam edib. Əvvəlki məhkəmə proseslərində olduğu kimi M.Həşimov bu dəfə də Allahşükür Paşazadənin qardaşı Cavanşir Paşazadənin sifarişi ilə həbs edildiyini deyib.**



# Həbsdəki şəriklərindən şeyxə və onun deputat qardaşına növbəti ağır ittihamlar

## İş adamı Müğdət Həşimov məhkəmədə sensasion ifadə verdi; "Ölkənin dini lideri məni və ailəmi bu vəziyyətə salıb"

Məhkəmədə qərara alınıb ki, şeyxin yaxın adamı, onun əmrlərini icra etdiyi bildirilən, adı bir çox qalmaqallı məlumatlarda hallanan və Hacı Mazan kimi tanınan Ramazan Zeynalov növbəti dəfə məhkəməyə çağırılsın.

M.Həşimovun vəkili Elçin Sadıqov bir neçə nəfərin də ələvə şahid qismində məhkəməyə gətirilməsini istəyib.

Məhkəmə müşavirədən sonra vəkil Elçin Sadıqovun vəsatətinin təmin edildiyini açıqlayıb.

Paşazadələr ailəsi ilə tibb müəssisəsində şərik olan M.Həşimov 2015-ci ildə Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə) maddəsi ilə təqsirli bilinərək həbs olunub. Sonradan onun barəsində 178.3.2 (dələduzluq) və 213.1(vergidən yayınma) maddələr ilə də ittiham irəli sürülüb. Müğdət Həşimov məhkəmədə bir daha günahsız yerə, Allahşükür Paşazadənin qardaşı deputat Cavanşir Paşazadənin sifarişi ilə həbs edildiyini deyib.

Deputat C.Paşazadənin himayəsində olan "Aygün-C" MMC-nin təsisçiləri ilə 2012-ci ilin 6 dekabrında rəsmi qaydada "Birgə fəaliyyət haqda" müqavilə bağlayan Müğdət Həşimov müqavilənin heç bir şərtini pozmadığını deyir. Müqavilənin şərtlərinə görə, M.Həşimovla iş birliyində Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni olub.

Hakim M.Həşimova xatırladıb ki, zərərçəkmiş kimi tanınan Ramazan Zeynalov şərik olduqları klinikaya alınan avadanlıqların keyfiyyətsiz və köhnə olması ilə bağlı məhkəmədə fikir bildirib.

Hakim M.Həşimovdan bu iddiaları rədd edən sübutları məhkəməyə təqdim etməsini istəyib: "Siz ittiham üzrə danışın. Ramazan Zeynalov avadanlıqların köhnə və keyfiyyətsiz olduğunu, buna görə hətta bir nəfərin öldüyünü deyir. Siz həmin klinikanın təsisçisi olmusunuz. Avadanlıqların köhnə olmadığını, keyfiyyətli olduğunu sübut edən sertifikatı, sənədləri məhkəməyə təqdim edin. Bunu sizə 20 dəfə demişəm".

**Müğdət Həşimov hakimin qeyd etdiyi sənədləri məhkəmənin növbəti iclasınadək təqdim etməyə çalışacağını bildirib. Təqsirləndirilən M.Həşimov Hacı Mazanın klinikadakı ölüm hadisəsi ilə bağlı dediklərinə də toxunub:** "Möhtərəm hakim, Hacı Mazan bir nəfərin öldüyünü deyir. Həmin hadisədən sonra Baş Prokurorluqdan, Səhiyyə Nazirliyindən yoxlama gəldi. Araşdırma aparıldı, sertifikatlar yoxlanıldı. Bu ölüm hadisəsindən əvvəl belə sertifikat olmasaydı, klinikanın 1 saat işləməsinə icazə verilməzdi. Bunu deməkdə məqsədim budur ki, avadanlıqlar nə keyfiyyətsiz, nə də köhnə olub. Mən Cavanşir Paşazadənin sifarişi ilə həbs edilmişəm. Bunu hamı bilir. Klinikada olan avadanlıqlarla bağlı deyilənlər yalandır. İşi aparan müstəntiq mənə dedi ki, "mən qələməm, yaz deyirlər, yazıram". Ölkənin dini lideri məni və ailəmi bu ağır vəziyyətə salıb. Özüm günahsız yerə aylardır həbsdəyəm. Aydın məsələdir ki, bu iş mülki işdir və mən sifarişlə həbs edilmişəm".

**Hakim növbəti dəfə Müğdət Həşimova ona aid olan ittiham üzrə danışması ilə bağlı xəbərdarlıq edib:** "Ayrı-ayrı şəxslər haqda ittihamlar səsləndirməyə ehtiyac yoxdur. Kiminsə sizi şərləyərək həbs etdirdiyini iddia edirsinizsə, bunu sübut edən faktları ortaya qoyun. Prokurorluğa müraciət edin. Siz mənim üçün sadəcə olaraq vətəndaşsınız".

M.Həşimov deyib ki, tərəflər arasında şərikliyin şərtinə görə Bank "VTB"dən 700 min manat götürülüb. Həmin pulun banka qaytarılması isə 2018-ci ilə qədər M.Həşimovun öhdəliyində olub. M.Həşimov klinikadan qazandığı pulla həmin borcu ödəməli imiş. Bankın pulu ödənilib bitdikdən sonra əldə olunan qazanc Cavanşir Paşazadə ilə M.Həşimov arasında bölünməli imiş. Klinika üçün ayrılan, bankdan götürülən ümumi 840 min manatın nəyə və hara xərclənməsi ilə bağlı istintaqa siyahı təqdim etmişəm. Bir məsələni də diqqətinizə çatdırım ki, Paşazadələrlə imzalanan müqavilədə mənim öhdəliyim avadanlıqların təzə olması deyildi. Bankdan götürülən 700 min manatı ödəmək idi. Bu öhdəliyi də yerinə yetirirdim. Müqavilə də 2018-ci ilə qədər idi. Aylıq 20 min manat kredit ödəyirdim. Amma razılığı onlar pozdular. Dəfələrlə danışığa getdim. Bu işi sülh yolu ilə həll etməyə çalışdım. Danışıqlar müddətində işləmədiyim halda 3 ay 20 min, cəmi 60 min manat krediti cibimdən ödədim. Ailəm pis vəziyyətə düşdü, bütün əmlakım əlimdən çıxdı. Özüm həbs edildim. Bəs, indi başıma gələnləri necə danışmayım? Bu işi kimlərin etdiyini necə deməyim?"

Məhkəmənin növbəti iclası dekabrın 26-na təyin edilib.

**Qeyd edək ki, klinika C.Paşazadənin adına olan 1255 kv.metrlik qeyri-yaşayış sahəsində açılıb. Şəriklik əsasında M.Həşimov "Medi-Sina" MMC-nin təsisçisi olaraq, fəaliyyətə başlayıb. Onun sözlərinə görə, Paşazadələrin sifarişi ilə Hacı Mazan onu klinikadan çıxarıb və barəsində hüquq-mühafizə orqanlarına müraciət edib.**

❑ **İlkin MURADOV**

# Azərbaycanlı fəal 58 gündür aclıq aksiyası keçirir

## İranda Azərbaycan dilində təhsil olmasını istəyən soydaşımızın həyatı təhlükə qarşısındadır

**Güney Azərbaycanda tanınmış milli-mədəni fəal Mürtəza Muradpur artıq 58 gündür ki, Kərəc həbsxanasında aclıq keçirir. Mətbuatda və sosial şəbəkələrdə yayılan məlumatlara görə azərbaycanlı fəalın sağlamlığı çox ağırdır. Aclıq nəticəsində fəal 44 kq çəkisini itirib, onun qaraciyəri, böyrəkləri sıradan çıxıb.**




29 yaşlı Mürtəza Muradpur "Beynəlxalq Ana dili" tədbirində iştirakına və Urmiya gölünün qurumasına etiraz etdiyi üçün 2015-ci ildə həbs olunub. Əvvəl milli təhlükəsizliyə qarşı fəaliyyətdə ittihamına görə 2 il həbs cəzası alan fəala, sonradan barəsində ikinci məhkəmə qərarı çıxarılaraq sistemə qarşı təbliğat ittihamı ilə daha bir həbs cəzası verilib. Bununla da İran hökuməti onun azadlığa çıxmasının qarşısını almağa çalışır. Mürtəza Muradpur azadlığa çıxmasını tələb etsə də, bu tələbi cavabsız qalıb. Buna görə də o, etiraz olaraq aclıq aksiyasına başlayıb.

Onun azad edilməsi ilə bağlı 18 dekabrda İstanbulda İranın baş konsulluğunun önündə aksiya keçirilib. Güney Azərbaycan Milli Oyanış Hərəkatının, Turan Ocaqlarının təşkil etdiyi aksiyada Muradpura dəstək məqsədilə ilə milli şüarlar səsləndirilib, İran əleyhinə fikirlər bildirilib.

Bakıda isə dekabrın 22-də bir qrup gəncin təşkilatçılığı ilə Muradpura həsr olunan konfrans keçirilib. Bütöv Azərbaycan Ocaqları isə (BAO) milli-mədəni fəalı təşkilatın fəxri üzvü elan edib. Eyni zamanda milli fəala aclığı dayandırmaq üçün BAO tərəfindən müraciət göndərilib. Bu barədə **BAO-nun sədri Zahir Əlisoy** "Yeni Müsavat"a açıqlamasında bildirib: "Mürtəza Muradpur Güney Azərbaycanın bir çox milli fəalları kimi kifayət qədər iradə nümayiş etdirir. Düşünürük ki, mübariz fəalımızı müdafiə etmək məqsədi ilə Milli Elmlər Akademiyasındakı azərbaycanlı ziyalı və alimlərimizin də müraciətini alaq və Mürtəza bəyə bir daha müraciət edək ki, aclığı dayandırsın. Çünki o bizə lazımdır. Quzey Azərbaycan bu hadisələrə heç də biganə deyil. Təəssüf ki, bəzən Azərbaycan bir çox əhəmiyyətli milli məsələlərdə çox vaxt passivlik nümayiş etdirir".

**Təbrizin tanınmış milli-mədəni fəallarından biri olan Cəmşid Zareyi** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, İran hökuməti Mürtəza Muradpuru məqsədli şəkildə azad etmək istəmir: "Bununla da onun timsalında milli-mədəni fəalları qorxutmaq, ruhdan salmağa çalışırlar. Lakin Mürtəza Muradpur çox sağlam iradəyə malikdir və İran rejiminə heç bir vəcdlə əyilməyəcəyini nümayiş etdirir. Artıq bildirişlər yayılıb ki, tez bir zamanda M. Muradpur azad edilməzsə Güney Azərbaycanın milli-mədəni fəalları Təbrizdə və Tehranda Milli Məclisin qarşısında etiraz aksiyaları keçirəcək".

**Xatırladaq ki, Mürtəza Muradpur bundan əvvəl də İranın türklərə qarşı siyasətinə dinc aksiyalarla etiraz etdiyi üçün dəfələrlə həbs olunub. Onun qardaşı Fərdin Muradpur da Güney Azərbaycanın tanınmış milli-fəallarından biridir.**

❑ **Xalidə GƏRAY**

# Terror və bəd sürprizlərlə dolu il



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Dünyanın dəngəsi həqiqətən pozulub. İl ildən ağır gəlir. Əfsus ki, başa çatmaqda olan 2016-cı il terror aktları ilə daha zəngin oldu. Yaxın Şərqdən, qardaş Türkiyədən tutmuş, Avropa ölkələrinədək terror sərhəd tanımadı, silsilə qanlı aktlar nəticəsində yüzlərlə günahsız insan, uşaq, qadın, gənc həyatından oldu, ondan qat-qat çox saydası isə şikəstə, əlilə çevrildi, həyatları qaraldı.**

Ən betəri odur ki, daxil olacağımız ildə də bu qəbildən proqnozlar sakitləşdirici deyil. Əsas səbəb də qlobal güclərin toqquşan dövlət maraqları və dünya liderlərinin ambisiyalarıdır. Onların Xeyir-Şər təsnifatına yanaşması artıq dəyişib. Qəribəsi də elə budur: qlobal güclərin hamısı məhz Şərlə mübarizə apardıqlarını bəyan edir.

Elədisə, nədən o zaman cahanda Şərin təcəssümü olan terror azalmır, qan-qadaların, çocuqların qətliamı bitmək bilmir? Axı, məntiqlə bitməli, dayanmalı idi. Deməli, hansısa güc, lider siyasi riyakarlıq edir, Şəri Xeyir cildində bəşəriyyətə sırımaq istəyir.

Məhz Xeyir-Şər bölgüsünə dəyişən münasibətin nəticəsidir ki, İstanbuldakı son müdhiş terror aktını demokratik dünyanın əksər liderləri, Avropanın mötəbər təşkilatları sinik şəkildə terror adlandırmadılar. Rusiyanın Türkiyədəki səfirinin qətlini isə Qərb mediasında Hələbə görə "qisas aktı" saydılar. "Nyu York Times"ın analitiki beləcə də yazmışdı ki, Rusiya səfiri gərək, iki ay öncə öldürüləydi. Yeri gəlmişkən, Rusiya daha çox şər qüvvələrini dəstəkləyir *(Bəşər Əsəd, erməni işğalçıları və separatçıları, Donbas başkəsənləri, Abxaziya və Osetiya separatçıları)...*

***

Azərbaycana gəlincə, Rəbbimizə şükür edək ki, terror bu il də bizdən yan ötdü. Hərgah, texnogen və digər səbəblərdən itkilərimiz heç də az olmadı. Aprel döyüşləri zamanı şəhidlər verdik, daha 10 neftçimiz Xəzərin sularında qərq oldu, intihar halları, yol qəzasında ölənlərin sayı isə rəsmi statistikaya görə, az qala, rekord həddə çatdı. Dəm qazı da ki can almaqda davam edir - qış hələ təzə girib...

Fəqət, insan itkilərinin bir hissəsi əgər özümüzdən asılı olmayan səbəblərdən baş verdisə, verirsə, ikinci qisim səbəblər əfsus ki, məmur bespredeli və səhlənkarlığı, mövcud siyasi sistemin yararsızlığı, insana yetərli diqqət və dəyər ayrılmaması səbəbindən oldu. Məsələn, "Neft daşaları"ndakı növbəti texnogen qəza: mütəxəssislərin rəyincə, qəzanın kökündə tikilinin, təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə olmaması ön sırada dayanır.

Yaxud ölkəni başına götürən intiharlar, özünü yandırmaqla həyatına vida deyən vətəndaşlarımız. Doğrudur, suisidlər inkişaf etmiş ölkələrdə də qeydə alınır - məişət və başqa zəmində. Amma və lakin bizdəki intiharların əhaliyə nisbətdə həm sayı, həm də aşağı yaş göstəricisi (uşaqlar) qan dondurur.

Ayrı sözlə, sırf Azərbaycanla bağlı özəl səbəblər var. Bu sıraya öncə getdikcə qəlizləşən sosial-iqtisadi vəziyyəti, nəfsi sərhəd tanımayan məmurların biganəliyini, sabaha ümidsizliyi aid eləmək gərəkir. Problemli kreditlər və dolların kursunun gündən-günə artması ilə bu problemin daha da ağırlaşması, bahalaşmanın yeni dalğası, bütün bunlar psixoloqlara görə, ölkəyə suisidlər baxımından növbəti ildə də yaxşı heç nə vəd eləmir.

Beləcə, məmləkət xalqla birgə növbəti təqvim ilinə daha ağır iqtisadi-psixoloji yüklə girir. Qarşıdakı ildə mümkün fəsadları önləməyin tək yolu isə ləngimədən iqtisadi islahatlara başlamaqdır. Bundan ötrü ən əvvəl iqtisadi-biznes azadlıqlarını təmin etmək, ölkədə total korrupsiya və monopoliyanın kökünü kəsmək, mülkiyyət toxunulmazlığına real zəmanət vermək və məhkəmələrin müstəqilliyini təmin eləməkdir - hansı problemlər ki, Azərbaycana xarici sərmayələrin qoyuluşunu əngələyir, ölkədən kapital və insan axınını stimullaşdırır.

**Ancaq korrupsioner məmurlarla hansısa islahatın baş tutması da mistik görünür. İstənilən halda iqtidardakı qüvvə, hökumət, məmur təbəqəsi gerçəkdən Azərbaycanı istəyirsə, bir an öncə üzünü xalqa çevirməyi bacarmalıdır. Əks halda, gələn il terrordan da təhlükəli kataklizmlər qaçılmaz olacaq.**

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

**Dekabrın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**


Vidadi Zeynalov

# “Ailə vəziyyətim yaxşı deyildi, şirkət yaratdıq”

## “Rabitə işi” üzrə məhkəmədə ziddiyyətli ifadə verən şahidə **Vidadi Zeynalov kömək etdi:** “Şirkət uşaqlarımın adı ilə bağlıdır, burada nə var ki?”

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesi şahidlərin ifadə verməsi ilə davam etdirilib. İlk şahid Əlizadə Nigar Eldar qızı olub. O, AKEY MMC-də baş mühasib işləyib. N.Əlizadə deyib ki, istintaq zamanı AKEY MMC ilə “Catrburg” şirkəti arasında müqavilə əsasında görülən bütün işlər barəsində məlumat verib. Şahid AKEY şirkətinin rəhbərinin Ayaz Kərimov olduğunu və ofisdə MTN-ə aid qurğuların olduğunu söyləyib.

Qeyd edək ki, “Cartburg” şirkəti sabiq MTN rəhbəri Eldar Mahmudovun oğlu Anar Mahmudovun nəzarətində olub. AKEY şirkətinin rəhbəri Ayaz Kərimov Anar Mahmudovun yaxın dostu olub. A.Kərimov həbslər başlayanda ölkəni tərk edib və hazırda axtarışdadır.

Digər şahid Sabunçu telefon qovşağının rəisi Nəriman Salmanov olub. O, ifadəsində qovşaqlarda görülən işlərə görə qiymətlərin şişirdilməsi və onlara da pul çatması ilə bağlı danışıb.

Ancaq Salmanov məhkəmədə özünə pul çatmadığını deyib. Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) sabiq rəhbəri Beytulla Hüseynov isə bunu təkzib edib. B.Hüseynov deyib ki, istintaq zamanı üzləşdirilərkən N.Salmanov əlavə olaraq onlara da pul çatdığını deyib.

Daha sonra hakimin sualına cavab olaraq N.Salmanov ziddiyyətli ifadələrini həyəcanlı olması ilə izah edib.

N.Salmanov məhkəmədə sualları cavablandırarkən bunları deyib: “Tenderlər formal olaraq keçirilib. Göstərişi də rəhbərlik verib. Telefon qovşaqlarına da əlavə pul çatırdı. Amma biz aldığımız pulları müəyyən yollarla geri qaytarmışıq. Həm işçilərə maaş almışıq, həm də birliyə telefon və digər avadanlıqların alınmasına xərclənib. Sabunçu rayonu üzrə görülən işlərdə qiymətlərin şişirdilməsindən xəbərim yoxdur. Müəyyən şirkətlər bu işi görürdü. Biz lazım olan təmir işləri ilə bağlı layihələri hazırlayıb, baş idarəyə göndərirdik. Görüləcək işlər orada müəyyənləşdirilirdi”.

Məhkəmədə növbəti şahid nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalovun sürücüsü Əliyev Elçin olub. O deyib ki, maddi vəziyyətinin yaxşılaşdırılması üçün ona “P.L.Z” MMC adlı şirkəti yaratmağı məsləhət görüblər. Sürücü bu məsləhəti Vidadi Zeynalovdan aldığını deyib: “Maddi imkanım, ailə vəziyyətim yaxşı deyildi. Belə məsləhət oldu, yaratdıq”.

Prokuror Fərid Nağıyev şirkətin adının niyə məhz “P.L.Z” MMC qoyulması ilə bağlı E.Əliyevə sual verib. Şahidin bu suala cavabı gecikdiyindən Vidadi Zeynalov cavab verib: “Şirkət uşaqlarımın adı ilə bağlıdır. Burada nə var ki?”

Sürücü V.Zeynalovun cavabından sonra bunları deyib: “Mən yalan danışmağı sevmirəm. İstintaqa da bu haqda demişəm”.

Hakim Əfqan Hacıyev şahidin bu sözlərinə replika ilə cavab verib: “Yəqin ki, indi utanır”.

**Məhkəmə prosesi dekabrın 28-nə təxirə salınıb.**

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər.

❑ **İlkin MURADOV**

# Vidadi Zeynalovun vəkili açıqlama yaydı


Ceyhun Yusifov

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) həbsdəki aparat rəhbəri Vidadi Zeynalovun vəkili Ceyhun Yusifov açıqlama yayıb.**

Həmin açıqlamada deyilir: “Son günlər mətbuatda Vidadi Zeynalovun məhkəmədə bir çox hallarla bağlı ifadə verdiyi yazılır. Bununla bağlı bildirirəm ki, Vidadi Zeynalov ümumiyyətlə məhkəmənin heç bir mərhələsində çıxış etməyib. Belə bir təqdirdə Vidadi Zeynalovun hər hansı bir açıqlama verməsi qeyri-mümkündür. Vidadi Zeynalovun ifadə verməməsi ittiham aktı ilə tam tanış olmaması ilə bağlıdır. İş materialları ilə tam tanış olandan sonra ifadə verəcək. Xahiş edirik mətbuat nümayəndələri bunu nəzərə alsınlar. Vidadi Zeynalovla bağlı xəbərləri dəqiqləşdirmədən mətbuata çıxarmasınlar”.

**Qeyd edək ki, V.Zeynalov 2004-cü ildən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin aparat rəhbəri vəzifəsinə təyin edilib. O, nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməkdə, müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsində və israf edilməsini təşkil etməkdə ittiham olunur. 2015-ci ilin noyabrında Cinayət Məcəlləsinin 179.3.2-ci və 308.2-ci maddələri ilə ittiham olunaraq barəsində Binəqədi Rayon Məhkəməsi tərəfindən 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib və hazırda mühakimə olunur.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Həbs olunan korrupsioner məmurların “məsum” obrazları...

## **Ekspert:** “Cinayət törədən məmurun ailə üzvü konkret olaraq cinayətdən deyil, ailəyə münasibətindən danışır”

**Ölkədə ağır cinayətlərə, dövlətə külli miqdarda zərər vurmağa görə həbs edilən məmurlar, nədənsə xalqdan üzr istəmək əvəzinə, daha çox məsum obrazı yaratmağa üstünlük verirlər. Bu halı DİN-in Cinayət Axtarış Baş İdarəsinin keçmiş baş əməliyyat müvəkkili, hazırda həbsdə olan Hacı Məmmədovdan, sabiq səhiyyə naziri Əli İnsanovdan tutmuş, hazırda məhkəmə prosesi gedən ləğv edilmiş MTN-in sabiq idarə rəisi general-mayor Akif Çovdarovun da simasında müşahidə etmək olar.**


Akif Çovdarov


Cahangir Hacıyev

Üzərilərində xeyli sayda cinayət əməlləri olan bu şəxslərin yaxınları da onların məsum olduqlarını dilə gətirirlər. Misal üçün Akif Çovdarovun oğlu Ruslan Çovdarov mətbuata açıqlamasında bildirib ki, atası xeyirxah işlərlə məşğul olan şəxs olub: “Akif Çovdarovu tanıyanlar bilir ki, necə ürəyə sahib olub, qapısına kömək məqsədi ilə gələni heç vaxt geri qaytarmayıb”.

Həmçinin, milyardlarla dövlət vəsaitini mənimsəyən, sahibkarların mülkünü qudası, sabiq nazir Eldar Mahmudovla birgə yaratdıqları şəbəkə vasitəsi ilə yağmalayan Beynəlxalq Bankın prezidenti Cahangir Hacıyev də eyni taktikadan istifadə edir...

Ekspertlərə görə belə hal əsasən onunla bağlıdır ki, bu cür şəxslər öz işlərində qəddar olsalar da, ailələrində xeyli mülayimdirlər. Eyni zamanda onlar çöldə gördükləri işləri evdə danışmağı sevmirlər. Bu baxımdan da ailələri onları məsum biri kimi tanıyırlar.

**Hüquqşünas Müzəffər Baxış** “Yeni Müsavat”a bildirib ki, bəzi xarici ölkələrdə cinayət törədənlər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edirlərsə, cəza təyin edilən zaman bunlar nəzərə alınır:

“Azərbaycanda isə belə bir hal mövcud deyil. Bizdə hələ ki, layihə formasında belə bir fikirlər var. Xarici ölkələrdə cinayət törədib hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edən, öz cinayət əməllərini etiraf edənlərə gələcəkdə dövlət cəza təyin edən zaman onların özlərini məsum aparmalarını nəzərə alır. Bu isə onların daha yüngül cəza alması ilə nəticələnir. Azərbaycanda isə hüquqi baxımdan əgər əməli varsa, cəzasını almalıdır. Məhkumların özlərini nə üçün məsum göstərməyə çalışmaları isə psixoloji bir məsələdir”.

**Psixoloq Elnur Rüstəmov** isə söyləyib ki, hər bir insanda instinktiv olaraq qoruma ünsürü var: “Bütün situasiyalarda insan özünü qorumağa çalışır. Bu hal özünü bütün müstəvilərdə göstərir. Ən qatı cinayətkar belə bəraət istəyir, yaxud da öz hərəkətlərini hansısa bir formada əsaslandırmağa çalışır. Proseslərə kontekstdən baxmaq lazımdır. Cinayətkardırsa, bu o demək deyil ki, onlar ailələrində də pis olublar. Yəni insan situasiyada şəxsiyyət, insan olaraq formalaşır. Hər hansı bir məmur, evdə məmur deyil. Yaxud da hər hansı bir müəllim, evdə müəllim deyil. Onlar işdə bu peşələrin sahibləridirlər. Onların qohumları insani baxımdan təhlil edib deyə bilərlər ki, bu şəxslər çox gözəl insan olublar. Deməmk olmaz ki, qohumlar bunu qeyri-səmimi şəkildə söyləyirlər. Xeyr, insanlar durub işlərini evə daşımırlar axı. Məsələ də budur. Cinayət törədən məmurun ailə üzvü konkret olaraq cinayətdən deyil, ailə üzvündən danışır. Çünki cinayətlə bağlı bəlkə də heç onun xəbəri yoxdur. Əksər hallarda insanlar bu cür işlərdə ailəni uzaq tutmağa çalışırlar. Ona görə də ailənin işdən xəbərsiz olması normal haldır. Psixologiyada konkret olaraq bu cür hala izolyasiya deyilir. Yəni, proses, prosesdən fərqləndirilməlidir. Onların işdə etdikləri və evdəki davranışları fərqləndirilməlidir. İnsan var ki, evdə pisdir, çöldə yaxşıdır. Yaxud da əksinə. O ki, qaldı hansısa cinayət əməlini törətmələrinə, buna da hüquqi müstəvidə qərar verilib, cəza təyin olunacaq”.

❑ **Əli RAİS**

# Prezidentin 55 yaşı münasibətilə YAP böyük konfrans keçirəcək

## İlham Əliyevə dünyanın dövlət başçılarından çoxsaylı təbrik məktubları gəlib

**Dekabrın 24-də Azərbaycan prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin doğum günüdür. Dövlət başçısı İlham Əliyevin 55 yaşı tamam olur.**

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1967-1977-ci illərdə Bakı şəhərində alan İlham Əliyev 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ - MQİMO) daxil olub, ali təhsilini müvəffəqiyyətlə başa vuraraq elmi fəaliyyətini institutun aspiranturasında davam etdirib. 1985-ci ildə dissertasiya müdafiə edən İlham Əliyev tarix elmləri namizədi alimlik dərəcəsi alıb və 1990-cı ilədək MDBƏİ-də müəllim işləyib. Gələcək dövlət başçısı 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışıb.

1995-ci və 2000-ci illərdə Milli Məclisə üzv seçilən İlham Əliyev 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri olub. AŞPA-da siyasi fəaliyyəti çərçivəsində 2003-cü ilin yanvar ayında qurumun sədr müavini və Büro üzvü seçilib. 2003-cü ilin yayında baş nazir vəzifəsinə təyin edilməsi ilə əlaqədar İlham Əliyevin deputat səlahiyyətlərinə xitam verilib. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının prezidenti seçilib və oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88 faizindən çoxunun səsini qazanan İlham Əliyev yenidən Azərbaycan Respublikasının prezidenti seçilib. 2013-cu il oktyabrın 9-da keçirilən prezident seçkilərində isə üçüncü dəfə dövlət başçısı seçilib.

Qeyd edək ki, İlham Əliyev 2004-cü ildən hakim Yeni Azərbaycan Partiyasının sədridir. Həmçinin 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilib. Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir. Üç övladı var.

55 yaşı tamam olması münasibətilə prezident İlham Əliyevə dünya ölkələrinin liderləri, bir sıra beynəlxalq təşkilatların rəhbərləri tərəfindən təbrik məktubları ünvanlanıb. Təbrik məktublarında Azərbaycanın hərtərəfli nailiyyətləri-cəmiyyətin rifahının yüksəlməsi və iqtisadiyyatın dinamik inkişafı, dövlətçiliyinin və dünyada nüfuzunun getdikcə artması vurğulanır. Çoxsaylı təbrik məktublarının demək olar ki, hamısında prezident İlham Əliyevin təcrübəli və uzaqgörən dövlət xadimi kimi beynəlxalq aləmdə yüksək nüfuza sahib olduğu, onun ali fəaliyyətinin Azərbaycanın gələcək uğurlu tərəqqisinə, cəmiyyətin sürətli inkişafına və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə yönəldiyi xüsusi qeyd edilir.



Yeni Azərbaycan Partiyası sədri, ölkə prezidenti İlham Əliyevin 55 illik yubileyi ilə əlaqədar böyük konfrans keçirəcək. Bu barədə **YAP mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev** "Yeni Müsavat"a açıqlamasında bildirib: "Yeni Azərbaycan Partiyası ənənəvi olaraq hər il cənab prezidentinin doğum günü münasibətilə müxtəlif mövzularda konfranslar keçirir. Bu konfranslarda ölkənin ictimai-siyasi həyatı, sosial həyatı ilə, demokratik dövlət quruculuğu ilə, aparılan islahatlarla bağlı müzakirələr açılır, məruzələr dinlənilir. Cənab prezidentin qeyd olunan istiqamətlərdə fəaliyyəti barədə iştirakçılara ətraflı məlumatlar verilir. Bu il də dekabrın 24-də cənab prezidentin 55 illik yubileyi münasibətilə "Gələcəyin ünvanına-İlham Əliyevin İslahatlar Strategiyası" mövzusunda böyük bir konfrans keçiriləcək. Bu konfransda Yeni Azərbaycan Partiyasının rəhbərliyi, mütəxəssislər, dövlət rəsmiləri, ziyalılar, gənclər iştirak edəcək. Cənab prezidentin rəhbərliyi altında ayrı-ayrı sahələr üzrə həyata keçirilən islahatlarla bağlı məruzələr dinləniləcək".

**Deputat Zahid Oruc** isə dövlət başçısının doğum günü ilə bağlı bildirib: "Ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi İlham Əliyevin 13 illik prezidentlik fəaliyyətinin qısa təhlili belə bu fikrin təxmin deyil, qəti qənaət olduğunu sübut edir. Ümummilli liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Azərbaycan xalqının Prezident İlham Əliyevə məhəbbətinin, inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. Onu xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət başçısına xas qətiyyət, atdığı hər bir addımda milli maraqları öndə tutmasıdır. Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına hesablanır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının prezidenti olmaq onun həyat fəlsəfəsidir".

❑ **Etibar SEYİDAĞA**

# "Elxan Süleymanovun səyi ilə qəbul edilən qətnamə müstəsna əhəmiyyət kəsb edir"



## AVCİYA "2085 (2016) saylı AŞPA qətnaməsi: praktikadan nəzəriyyəyə" mövzusunda konfrans keçirdi

**Dekabrın 23-də Bakıda, "Ambassador" otelində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) təşkilatçılığı ilə "2085 (2016) saylı AŞPA qətnaməsi: praktikadan nəzəriyyəyə" mövzusunda elmi-nəzəri konfrans keçirildi.**

Musavat.com xəbər verir ki, konfransı giriş sözü ilə **AVCİYA-nın eksperti Şahin Camalov** açdı. **AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov** konfrans iştirakçılarını salamlayaraq qeyd etdi ki, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması AVCİYA-nın fəaliyyətinin ana xəttini təşkil edir. Bir neçə il öncə AVCİYA-nın Xocalı soyqırımı ilə bağlı keçirdiyi "Milyon imza - bir tələb" kampaniyası bu təşkilatın ən mühüm işlərindəndir. Bir neçə il öncə isə AVCİYA Sərsəng su anbarı ilə bağlı məsələni beynəlxalq platformaya daşıdı. **AVCİYA prezidenti, millət vəkili Elxan Süleymanov**un böyük səyi nəticəsində problemlə bağlı qətnamə layihəsi hazırlandı və qəbul edildi. Qətnamədə ilk dəfə olaraq Azərbaycan ərazilərinin işğalı faktı vurğulanır və bu, diplomatiyamızın ən böyük uğurlarındandır.

**Hüquq elmləri doktoru, professor Əmir Əliyev** konfransı çox vacib bir problemə həsr olunduğunu vurğuladı. Natiq qeyd etdi ki, Ermənistanın işğalı ilə əlaqədar yaranmış problemlər daim beynəlxalq səviyyədə qaldırılmalıdır. Ə.Əliyev xüsusilə Ermənistanın təcavüzü nəticəsində insan hüquqlarının pozulması məsələsinin qabardılmasının gərəkliliyini bildirdi. Professor bunu beynəlxalq təşkilatların nəzarət mexanizminin mövcudluğu ilə əsaslandırdı. Əmir Əliyev bildirdi: "Qəbul edilən qətnamələrin kağız üzərində qalmamasına, onların icrasına çalışmalıyıq. 2085 saylı qətnamədə bir çox vacib məsələlərə - o cümlədən də ekoloji təcavüz məsələsinə toxunulub. Ona görə də hesab edirəm ki, millət vəkili Elxan Süleymanovun səyi ilə qəbul edilən bu qətnamə müstəsna əhəmiyyət kəsb edir".



**Hüquq elmləri doktoru, professor Rüstəm Məmmədov** bildirdi ki, su problemləri ilə bağlı münaqişələr dünya üçün tanışdır. Lakin su hövzəsinin işğalı və 7 rayonun susuz qoyulması və üstəlik beynəlxalq birliyə meydan oxunulması müstəsna hadisədir. R.Məmmədov qeyd etdi ki, problemin beynəlxalq hüquqa müraciət edilmədən həlli mümkünsüzdür. 2085 saylı qətnamənin qəbulunu böyük uğur sayan Rüstəm Məmmədov 7 rayonun susuz qalmasına yol verməmək lazım olduğunu söylədi.

**Hüquq elmləri doktoru Fazil Zeynalov** vurğuladı ki, müzakirə edilən problemlə bağlı beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Ona görə də o, Prezident İlham Əliyevin söylədiyi kimi, hücum diplomatiyasının davam etdirilməsinin zəruriliyini bildirdi.

**Siyasi elmlər doktoru Ramiz Sevdimalıyev** bildirdi ki, işğal altında bu qədər strateji obyektlərimiz olduğu halda niyə məhz Sərsəng su anbarı ilə bağlı məsələnin qabardıldığına dair konfrans iştirakçılarında sual yarana bilər. Natiq qeyd etdi ki, bu, Sərsəng su anbarının Azərbaycan ərazisində tikilmiş ən böyük ikinci su anbarı olması və 1976-cı ildən bəri heç bir əsaslı təmir işləri aparılmadığından qəzalı vəziyyətdə olması ilə bağlıdır. R.Sevdimalıyev nəzərə çatdırdı ki, su anbarında qəza baş verəcəyi təqdirdə humanitar və ekoloji böhran qaçılmaz olacaq. 2016-cı ildə AŞPA-nın Azərbaycanın sərhədyanı rayonlarının qəsdən sudan məhrum edilməsi ilə bağlı qətnaməsinin əhəmiyyətini qeyd edən R.Sevdimalıyev BMT və digər Avropa təşkilatlarının qəbul etdiyi sənədlərdən fərqli olaraq Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı faktının göstərilməsinin vacibliyini qabardıb.

**Hüquq üzrə fəlsəfə doktoru Əlövsət Allahverdiyev** bildirib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində beynəlxalq hüququn tələbləri pozulub. Müharibə dövründə ətraf mühitin qorunmasını tələb edən beynəlxalq konvensiyaların mövcudluğuna rəğmən, Ermənistan bu sənədlərə riayət etmir.

**Konfransda hüquq üzrə fəlsəfə doktoru Samirə Eyvazova**, silahlı münaqişələr zamanı su ehtiyatından istifadənin beynəlxalq hüquqi problemləri, **hüquq üzrə fəlsəfə doktoru Turqay Hüseynov** silahlı münaqişələr və sağlam ətraf mühitdə yaşamaq hüququ: müasir baxış, **hüquq üzrə fəlsəfə doktoru Azər Səfərov** hərbi münaqişələr zamanı hidrotexniki qurğuların mühafizəsi problemi: Sərsəng su anbarı nümunəsində 2085 (2016) saylı AŞPA Qətnaməsi informasiya hüquqları və Azərbaycanın milli media hüququ kontekstində mövzularında çıxışlar etdilər.

**Sonra məruzələr ətrafında müzakirələr oldu.**

❑ **Musavat.com**



# 76 yaşlı naməhrəm prezidentin pərtliyi

Samir SARI

**Almaniyada mühacir müsəlman qızın ölkənin prezidentinin əlini havada qoyması, onunla əl tutuşub görüşməkdən imtina etməsi Avropadan çox, ölkəmizdə müzakirə olunur. Və bu, təbiidir.**

Çünki biz də müsəlman ölkəsiyik, yeri gələndə əlimizi kitab tuturmuş kimi açıb (hərçənd bəziləri ovcunda su varmış kimi tutur) "Fatihə" surəsi oxumağımız, su içəndə "bismillah" deməyimiz var. "Maşallah", "inşallah", "əstəğfürullah" kəlmələri də dilimizdən düşməz, nəmxuda.

Ancaq biz Almaniya kimi nəhəng dövlətin prezidentinin əlini havada qoyacaq qədər saf müsəlman deyilik. (Burada "fanatik müsəlman", yaxud "xalis müsəlman" da yazmaq olardı). Hətta bizimkilər qürbət ölkədə onlara yardım edən nəinki prezidentin, nazirin, bələdiyyə sədrinin, hətta adi, sıravi bir adamın da salamını almağı borc bilirlər.

Əlbəttə, bizdə də eləlері tapılar ki, yad adamla, naməhrəmlə əl tutuşub görüşmək istəməz, amma bu az-az olar.

Yəqin ki, həmin hadisəni (Almaniya prezidentinin pərt durumda qalması) görüntüləyən şəkli görmüsünüz, cənab Yoahim Qauk şəstlə əlini qıza uzadıb, o da türkiyəli siyasətçilərin "eyvallah" deyəndən sonra əllərini ürəklərinin üstünə qoymalarına oxşayan bir hərəkət edir. Nəticədə yazıq Qauk baxa-baxa qalıb. "Bilirsənmi, ürəyindən nələr keçir? Nələr keçir, nələr keçir, dərdin alım" məsələsi...

Ola bilər ki, o qız sidq-ürəkdən, səmimi qəlbdən inanır ki, əli babası, dədəsi yaşda kişinin əlinə dəysə, günaha batacaq, namus-qeyrət əldən gedəcək, cəhənnəmlik olacaq. Amma bu kişi ağsaqqaldır axı, onun əks-cinslə təmas eşqi ilə ictimai yerlərdə sümsünən vaxtı çoxdan keçib. Üstəlik, o, elə bir ölkədə yaşayır ki, orada cinsəllik problemi yoxdur. Yeni bütün kişilərin bütün qadınlara məhz cinsi şəhvət predmeti kimi baxmaları, el dilində desək, hər kəsə süllab satmaları ənənəsi darmadağın olub gedib.

Ona görə də günaha batmaqdan qorxan müsəlman qız gərək 76 yaşlı ağsaqqala əl uzatmaqdan çəkinməyəydi, anlayaydı ki, bu 18 yaşlı Ahmed, 22 yaşlı Mövlud, 35 yaşlı Səud, 45 yaşlı Cemal, 55 yaşlı Məktum, 67 yaşlı Nəsrallah deyil.

Bu da başqa bir söhbətdir ki, "günaha batmaqdan qorxan müsəlman qız"ın "gavurlar", "kafirlər", "allahsızlar" ölkəsində nə işi var? Necə ola bilər ki, bu kafirlərin saldığı küçədə gəzəsən, tikdikləri binalarda yaşayasan, düzəltdikləri maşında yol gedəsən, istehsal etdikləri ərzağı yeyəsən, geyimi geyəsən, günaha batmayasan, amma Hitleri tribunada, Gobbelsi paradda görmüş adamla əl tutuşmaqdan qorxasan?

Bax, dünya bu işə mat qalır və müsəlmanlara quşqu ilə yanaşır. Hər il dünyanın müharibə gedən və getməyən ölkələrindən milyonlarla müsəlman söydükləri, kafir adlandırdıqları xristianların ölkəsinə pənah aparır. Düzdür, artıq müsəlmanların yaşadığı elə bir ölkə yoxdur ki, orda nəsə bir müharibə getməsin, amma müsəlmanlar da sakit, müharibəsiz yaşamaq istəyirlər, ona görə sakit, təhlükəsiz ölkələrə axışırlar.

Di gəl, belə bir minusları var ki, onlar hansı ölkəyə getsələr, orda dava salırlar. Məsələn, İtaliyada bəzənmiş Yeni il ağacını uçurub-dağıtmaq nəyə lazım idi? Ya da Milad yarmarkasında camaatın üstünə yük maşını sürüb 60-dan artıq adamı şil-şikəst etmək, öldürmək?

2-3 ay qabaq Suriyadan İslandiyaya gələn iki müsəlman gənc paytaxt Reykyavikin mərkəzindəki kilsəyə sığınmışdılar, sığınacaq istəyirdilər. Əlbəttə, kilsə də Allahın evlərindən biridir, əlacsız qalmış istənilən insan hansı dinə tapınmasından asılı olmayaraq ora sığına bilər. Ancaq islandiyalılar norveçlilər qədər tolerant çıxmadılar, onları cələkləyib gəldikləri ölkəyə - Norveçə qaytardılar ki, bunlar işləri düzələndən sonra gələcək, "gavurlar evi" deyərək kilsəyə "molotov kokteyli" atacaqlar.

Uzun sözün kəsəsi, insanlar çalışmalıdır ki, bir-biri ilə irqi, milli, dini, cinsi fərq qoymadan, iç-içə yaşasınlar. Yox, kimsə ayrıca, təcrid olunmuş şəkildə yaşamaq istəyirsə, o zaman onun cəmiyyətini bəyənmədiyi ölkəyə gedib, "yersiz gəldi, yerli qaç" prinsipi aparmaq, gəmidə oturub gəmiçinin anasına cinsi münasibətlər təklif etmək ixtiyarı yoxdur.

**Yaxın Şərqdəki zülm-zillət dolu ölkələrdən qaçaraq azad ölkələrə sığınanlar bilməlidirlər ki, eyni davranışı öz ölkələrinin şahlarına, şeyxlərinə, şahzadə və şeyxzadələrinə qarşı etsəydilər, gecəylə nəsillərinin bütün başıçalmalılarını zindana basar, başılaçəklilərini isə özlərinə zorla arvad edərdilər. Bu yaxşıdır, yoxsa 76 yaşlı naməhrəm prezidentlə əl tutuşmaq?**

# Yeni ildə əfv sərəncamı olmaya bilər

**Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə bir həftə qalır. Hər il bu vaxtlar əsas mövzulardan biri də əfv sərəncamı ilə bağlı olur. Bu il də eyni situasiyadır; ayın əvvəllərindən Yeni il ərəfəsində əfv sərəncamı imzalanacağı haqda xəbərlər vardı.**

## Əliməmməd Nuriyev: "Bu, prezidentin müstəsna səlahiyyətidir"

Amma bugünədək nə Əfv Komissiyası üzvləri, nə də hüquq müdafiəçiləri səviyyəsində bununla bağlı konkret fikir bildirilməyib. Bu isə o anlama gəlir ki, son illərdə Yeni il ərəfəsində ənənə halını alan əfv sərəncamı bu il olmaya bilər.

**Əfv Komissiyasının üzvü, hüquqşünas Əliməmməd Nuriyev** "Yeni Müsavat"a açıqlamasında əfv sərəncamının verilməyəcəyinin dolayısı ilə anonsunu verdi: "İndiyə qədər Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı əfv sərəncamları imzalanıb. Amma bu daimi xarakter alan proses olmayıb. Bu o zaman baş verirdi ki, həmin illər əfv sərəncamı olmurdu. Amma bu il bildiyiniz kimi mart ayında əfv sərəncamı imzalanıb. Daha sonra isə amnistiya aktı imzalandı. Onu da qeyd edim ki, vaxtından əvvəl şərti azadlığa buraxılma ilə bağlı Ədliyyə Nazirliyində komissiya da yaradılıb. Həmin komissiyanın rəyi ilə çoxsaylı məhbus azadlığa çıxıb. Bu il ərzində Azərbaycanda cəza sisteminin müasirləşdirilməsi istiqamətində yetərincə addımlar atılıb və işlər davam etməkdədir. Bu amillər əfv sərəncamının verilməsini ertələyə bilər. Bu cənab prezidentin müstəsna səlahiyyətinə aid olan məsələdir. Ölkə başçısı tərəfindən müəyyən edilir ki, nə zaman sərəncam verilsin. Bu baxımdan əfvin olub-olmaması ilə bağlı qəti fikir söyləmək doğru olmaz. Amma ona inanıram ki, cənab prezident tərəfindən növbəti ildə əfv sərəncamının verilməsinin şahidi olacağıq. Ehtimallarla danışmayaq. Unutmayaq ki, bu il ərzində verilən qərarlarla 13 mindən çox məhbus azad olunub. Proseslər davamlı xarakter daşıyır. Əfv Komissiyasının katibliyi daimi işləyir. Eyni zamanda, Prezident Aparatında hüquq mühafizə orqanları ilə iş şöbəsində əfv sektoru da daimi işləyir. Mütəmadi olaraq, məhbuslar tərəfindən müraciətlər daxil olur və bu istiqamətdə işlər gedir. Cənab prezident bu il müstəsna hüququndan istifadə edib, bir də nə zaman istifadə edəcəyi onun iradəsindən asılı məsələdir. Hər zaman öz vətəndaşlarına qarşı humanizm göstərməkdə ölkə başçısı davam edir".



Əliməmməd Nuriyev

❑ Cavanşir ABBASLI

# Dollar qıtlığı ərzaq və dərman qıtlığı yarada bilər - xəbərdarlıq

## Ekspert: "Valyuta olmayacaqsa, ərzaq və dərmanların növbəti partiyalarının gətirilməsi ilə bağlı problem yaşanacaq"

**Bankların dollar satışını dayandırması, xarici valyutanın limitlə verilməsi, "qara bazar"ın sıxışdırılması qıtlığa səbəb ola bilər. Bu problem hələ ki ciddi şəkildə hiss olunmasa da, bir müddət sonra qaçılmaz olacaq. Bir çox iqtisadçı ekspertlər bu fikirdədir.**

Həmçinin əhali də bu durumdan ciddi şəkildə narahatdır. İqtisadçıların sözlərinə görə, sahibkarların xaricdən idxal etdikləri maldan anbarlarda hələ müəyyən miqdarda olduğundan bu qıtlıq qabarıq şəkildə nəzərə çarpmır. Lakin dolların olmaması səbəbindən xaricdən idxal prosesində yaşanan əngəllər yaxın iki ayda özünü daha çox bürüzə verəcək.

**İqtisadçı-ekspert Rəşad Həsənov** da "Yeni Müsavat"a açıqlamasında bunu mümkün hesab etdi: "Hazırda bunun müəyyən simptomları hiss olunmaqdadır. Devalvasiyalardan sonra istehlak məhsullarının qiymət indeksindəki dəyişiklik devalvasiyanın indeksinə uyğun getmir. Manat təxminən 55 faiz dəyər itirsə də, məhsulların qiymətində 55 faiz artımın edilməsi mümkün olmayıb. Çünki burada həm alıcılıq gücünün sürətlə azalması mühüm rol oynayır, digər tərəfdən isə müəyyən mənada sahibkarlar üzərindəki təzyiqlər bu məsələdə dinamikanın ləngiməsinə gətirib çıxarıb. Burada söhbət qiymət artımının müsbət hal olmasından getmir. Söhbət ondan gedir ki, idxal prosesi sahibkar üçün maraqlı deyilsə, o zaman sahibkar mümkün qədər prosesdən kənarda qalmağa, məhsul idxalını dayandırmağa çalışacaq".

**İqtisadçının sözlərinə görə, bu gün baş verənlər də məhz sahibkarların idxal prosesindən imtina etməsinə doğru aparır:** "Amma burada müşahidə olunan ən ciddi problem valyuta əlçatanlığının aşağı düşməsidir. Bildiyiniz kimi, dekabr ayının əvvəlindən etibarən qara bazarla mübarizə adı altında başlanılan kompaniyaya faktiki olaraq banklar valyuta satışı etmir. Qara bazarda isə ciddi təhlükələr mövcud olduğundan satış demək olar ki, yox səviyyəsindədir. Banklar sahibkarların idxal məqsədilə göndərilən vəsaitlərinin manatla yatırılıb konvertasiya edilməsinə təşviq edirlər. Amma onu da nəzərə alaq lazımdır ki, Azərbaycanda hazırda ən müxtəlif səbəblərdən biznesin, o cümlədən idxalın həyata keçirilməsində nağd dövriyyədən istifadə olunur. Ödənişlər nağd şəkildə aparılır. Belə bir şəraitdə idxal və ixracla məşğul olan sahibkarların böyük bir qismi bankların təklif etdiyi variantdan istifadə edə bilmirlər. Bu da son nəticədə idxal proseslərinin dayanmasına səbəb olur".

"Əgər valyuta olmayacaqsa, proses dayanacaq. Hazırda bu istiqamətdə ciddi böhran olduğu üçün 2017-ci ilin əvvəllərində ərzaq qıtlığının yaranması gözləniləndir. Xüsusilə dərman preparatları ilə bağlı qıtlıq artıq yaşanır. Ərzaq sahəsində də lüks kateqoriyalı məhsullar üzrə qıtlıq və bahalaşma hiss olunur. Ancaq bu halın kütləviləşməsi yaxın dövr üçün proqnozlaşdırılmır. Çünki bu məhsulların bir çoxunun istehlak müddəti az olduğundan daha kiçi partiyalarla qısamüddətli dövr üçün idxal olunur. Əgər valyuta olmayacaqsa növbəti partiyaların gətirilməsi ilə bağlı problem yaşanacaq. Bu da təbii ki, ərzaq bazarında qıtlığa səbəb olacaq".





❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

**17 min əhalisi olan Xızı rayonunda aptek, yanacaqdoldurma məntəqəsi və bazar olmaması haqda bu günlərdə məlumat yayıldı. Əhali bu cür problemlərdən ciddi əziyyət çəkir. Rayonun icra başçısı Xəzər Aslanov və yeni deputat Hacı Salayevin problemlərə biganə qalmaları etiraz doğurur.**

# Tanınmış YAP-çı icra başçısının Xızını viran qoymasından danışdı

## Maksim Musayev: "Xəzər Aslanov rayonda özünə 3 villa tikdirib, bu adam prezidentə xəyanət edir"

Xızının keçmiş icra başçısı, sabiq deputat, YAP-ın qurucularından olan Maksim Musayevlə bu və ya digər məsələlərlə bağlı söhbət etdik.

***- Vaxtı ilə icra başçısı olduğunuz rayonun bugünkü vəziyyəti ilə tanışsınızmı?***

- Sizin qəzet vasitəsilə iki ay öncə bu barədə bəzi məlumatlar vermişdim. Mənim danışmağımın səbəbi o olmuşdu ki, yaşadığımız Xızı rayonunda nəvələrim üçün idman zalı tikmişdim. İcra başçısı şəxsən gəlib oranı sökdü. O məsələ ilə bağlı danışarkən rayon haqda da ümumi problemlərdən söz açmışdım. Xızının problemləri ilə bağlı zəngin məlumatlara malikəm. O rayonu qurub-yaradan mənəm. 15 il o rayonun deputatı, daha əvvəl icra başçısı və o rayonla əlaqələrim geniş olduğu üçün məlumatım da çoxdur. Xızını öz övladlarımdan bir sayıram. O rayonu yaradanda elə vaxt olub ki, çadırda yaşamışam. Məcburi köçkünlər gələn vaxt 5-6 ailəni tövlədə bir yerdə yerləşdirmişdilər. Məni Ayaz Mütəllimov çağırdı və dedi ki, gedib rayonu bərpa etməlisən. Ora gedəndə nə qədər ciddi problemlərin olduğunu gördüm. Ayaz Mütəllimovun özü də bir neçə dəfə gəlib rayonun vəziyyəti ilə tanış oldu, qaçqınların vəziyyətini öyrəndi. O yaxşı gördü ki, orada necə əziyyətlər çəkirəm. Onun tapşırığı ilə rayona işıq, su, elektrik xətti çəkdik. Heç bir il keçmədi ki, kadr çatışmazlığına baxmayaraq, o rayonu düzəldə bildik. Onun qaçqın-məcburi köçkün rayonuna doğmacasına, səmimiyyətlə diqqət verməsinin şahidiyəm və gec də olsa, bu sahədə mənə etdiyi kömək üçün ona razılığımı bildirirəm. Təsəvvür edin ki, uşaq bağçası tikmişdik, indi o da yoxdur. Həqiqətdir ki, orada aptek yoxdur. Rayonun mərkəzində mağazalar var idi, sökdülər. Mənə çox ağır gəlir ki, alın təri tökdüyüm o rayonda problemlər başdan aşır. 20 ildir ki, əhali maşınlarda satılan suyu pulla alır. Digər rayonlarla müqayisədə Xızı çox-çox geridə qalıb. Halbuki Bakı ilə 90 kilometr arası var. Azərbaycanda Bakıya belə yaxın olan Xızı kimi cənnət guşəsi yer yoxdur. "Xızı XX əsr"də kitabım var, orada hər şeyi yazmışam. Məndən sonra rayonda 8 icra başçısı dəyişib. Düzdür, hərəsi özünə uyğun işlər görüblər. Aptekin olmaması ilə bağlı sakinlər mənə də müraciət ediblər. Orada xəstəxana tikiblər və mən bilən yaxşı fəaliyyət göstərir, camaat bundan razıdır. Xəstəxananın içində aptek ola bilər. Xızıya şəhər statusu veriblər, büdcəsi xeyli çoxalıb. Amma küçələrin əksəriyyəti gecələr işıqsızdır. 90-cı illərdə biz oranın hamısını çıl-çıraq etmişdik. Hazırda Xızı şəhərində mal-qara küçələrdə "kef çəkir".



***- Hətta bir yanacaqdoldurma məntəqəsinin belə olmadığı deyilir...***

- Heç vaxt Xızının mərkəzində və Altıağacda yanacaqdoldurma məntəqəsi olmayıb. Rayonun girişində birini tikiblər. Onun da işləməsinə imkan vermirlər. Bu barədə müxtəlif söhbətlər eşitmişəm. Benzini beş litrlik su qablarında, yaxud da iki litrlik pivə qablarında evlərdə satırlar. Əhali artıq buna öyrəşib. Sovet dövründə müharibədən sonra benzini necə satırdılarsa, indi Xızı o dövrün taleyini bu sahədə yaşayır. İndi Altıağaca gedin görəcəksiniz, 700-ə yaxın yaşayış binası var, onun 500-ə yaxını villadır. O villalarda da demək olar ki, adam yaşamır. Hətta rayonda təkər yamayan yer də yoxdur. Orada tikinti aparanda qapı-pəncərə düzəltdirmək üçün yer tapmadım. Bakıda düzəltdirib apardım. Xızının mərkəzində tikinti malları mağazası belə yoxdur. Bu sahələrə ümumiyyətlə, fikir verilmir. Vaxtı ilə rayon mərkəzində 35 satış yeri olan bazar tikmişdik, onu da sökdülər. Azərbaycanda bazarsız bir rayon varsa, o da Xızıdır. İstəsən bazar tikəsən, icra başçısı onu da dağıdacaq.

**"O deputatların da, məmurların da yerinə utanıram"**

***- İcra başçısı bu problemləri görmür?***

- Xəzər Aslanov hər şeyi özü üçün edir, yalnız özünü fikirləşir. İcra başçısı olandan 3 villa tikdirib; birini Xızının mərkəzində, birini Şurabatda, birini də Altıağacda. Onun başı belə işlərə qarışıb. Bir də söküb dağıtmaqla məşğuldur. İşlədiyi beş ildə bir idman obyekti tikməyib. Axtarsan belə rayon respublikada tapmazsan. Bu, prezident İlham Əliyevin siyasətinə olduqca zidd metoddur. Bu insan harada tikinti gedirsə, dərhal onu sökdürür. Kafe var ki, orada toyuq hini tikmək istəyiblər. Görən kimi deyib ki, məndən icazəsiz bunu niyə tikdirmisən? Müavinlərini göndərib həmin toyuq hinini dağıtdırıb. Ən qəddar müavinlərindən biri Arzu adlı məmurdur. Onu da əfsuslar olsun ki, hələ o zaman icra başçısı olarkən mən işə götürmüşəm və bu sahədə özümün günahımı boynuma alıram. Məcburi köçkün idi, qalmışdı işsiz. Onu işlə təmin etdim. İndi onu Xəzər Aslanov özünə müavin götürüb, dağıdan qüvvə də odur. Heç cür razılaşa bilmirəm ki, icra hakimiyyətinin rəhbərləri içərisində hər üçü də kənardan gəlmələrdir. Yerli əhalinin nümayəndələri Xızı rəhbərliyində təmsil olunmurlar. Bu balans pozulub, bir rayonu yaradanda yerli əhalinin kadrlarına, Gürcüstandan qaçıb gələnlərə və Orta Asiyada qovulan məhsəti türklərinə də vəzifə vermişdik. Hansı kafedə bir köməkçi bina tikilirsə, Xəzər Aslanov dərhal oraya çökür. Soruşan da yoxdur ki, bu nə iş prinsipidir? Anti-demokratiya, özbaşınalıq hökm sürür. İki ay öncə mənim də obyektim söküldü, hələ də bir söz deyən yoxdur. Özbaşınalıq rayonda günü-gündən artır. Qorxusundan heç kim dillənmir. Kimsə nəsə deyən kimi sıxışdırılır. Əlisəfa adlı sosialist əməyi qəhrəmanı var idi. Heydər Əliyev ona bu adı verib. 15 il Ali Sovetin deputatı olub. Ona müstəqillik dövründə 800 hektar torpaq vermişdim, sahibkarlıqla məşğul idi. İki gün öncə onun həyat yoldaşı Ziynət Yaqubova mənə zəng etmişdi. Əsə-əsə mənə deyir ki, icra başçısı həmin sahəni dağıdır, onu necə saxlayım. Nə istəyirlər edirlər, kimsəni veclərinə almırlar. Əlisəfa hələ ölməmişdi, 2008-2014-cü illərdə cənab prezident İlham Əliyev Xızıya gedəndə birinci bu zəhmətkeş insanın əlini sıxmışdı, onu bütün keçmiş SSRİ-də tanıyırdılar, məşhurlaşmışdı. İndi həmin Əlisəfanın obyektini dağıdırlar. Onun yoldaşına deyirəm ki, mənim də obyektimi Altıağacda dağıdıblar. Deyir eşitmişik, amma hələ də inanmırıq. Nə edəcəklərini soruşur, çarəsiz qalıb heç nə deyə bilməyəcəyimi söylədim. Xızıda olan özbaşınalıq Azərbaycanda heç yerdə yoxdur. Xəzər Aslanov Azərbaycan üçün bir ləkədir, o, kobud, söyüşkən biridir. Onun kim tərəfindən himayə olunduğu rayonda yaxşı bilirlər. Bu hərəkətləri edən Xəzər Aslanov belə əməlləri ilə İlham Əliyevə ona xəyanət edir.

**"Vaxtı ilə ermənilər qovaladılar, indi də ədalətsiz əməllər məni qovalasın?"**

***- Bəs deputat hara baxır?***

- O deputatla tanış deyiləm. Məndən sonra orada Zeynəb Xanlarova deputat oldu. Rəhmətlik Heydər Əliyev o vaxt tapşırıq vermişdi ki, hər icra hakimiyyətinin binasında deputatlar üçün yer ayrılsın. Deputatlar orada seçicilərini qəbul edir, özlərinə aid olan işlərlə məşğul olurdular. Mən də zamanında seçicilərimi qəbul edirdim. Xızı, Qobustan və Siyəzən rayonlarının deputatı idim. Hər rayonda da iş otağım var idi. Hətta camaatın evlərinə gedir, problemləri ilə yerində maraqlanırdım. İndi deputatların hansı işlərlə məşğul olduqları göz önündədir. Onlar daha çox sahibkarlıq işləri ilə məşğul olurlar. Halbuki, konstitusiya ilə bu qadağan olunub. Əgər deputat konstitusiyanı pozursa, o zaman məmurlar nə etməlidirlər? Belə olan halda məmurlar bundan da betərini edəcəklər. Problemin həlli məhz buradan başlanmalıdır. Bu müsahibəmdən sonra onlar yenə də mənə zəng edəcəklər, ay Maksim müəllim, sən Allah sakit dur, otur yerində, niyə qoymursan öz işimizlə məşğul olaq və s. bu kimi kimi sözlər deyəcəklər. İndi xətaya yol vermişəm ki, qanunları dərindən bilirəm. İndi nə edim, deyirsiniz, susum? Bunu da nədənsə bacara bilmirəm. Ölkədən çıxım gedim? Ölkəmi necə qoyub gedə bilərəm? Vaxtı ilə ermənilər qovaladılar, indi də ədalətsiz əməllər məni qovalasın? Heç bir yerə gedən deyiləm. Dərk etməlidirlər ki, hamımız qanunla işləməliyik. Qanun olan yerdə hər şey qaydasında olur. O ölkə inkişaf edir ki, orada deputat da, məmur da, kimliyindən asılı olmayaraq, hər kəs qanuna tabedir. Məmurların övladları indi meydan sulayırlar. Necə olur ki, Naxçıvanda qanun-qayda, intizam yüksək səviyyədədir? Vasif Talıbovun özü yol-hərəkət qaydalarına yüksək əməl edir, başqalarından da bunu tələb edir. Onun özü intizama uyğun iş metodunu qurur, digərlərindən də buna əməl etməyi tələb edir. İstərdim ki, şuluqluq edən icra başçılarını bir müddət göndərələr Naxçıvana Talıbovun tabeliyinə, onun iş rejiminin məngəsində işləməyə, o zaman belələri düzələr. Mən xaricə getmirəm, gedəndə də xaric əvəzi Naxçıvana gedirəm, 3-4 gün dincəlirəm, elə bilirəm ki, xaricdəyəm, özü də ən gözəl ölkədə. Bura gələndə isə biabırçılıqlarla rastlaşıram. 2 aydır Xızıya getmirəm, gedən kimi camaat üstümə tökülür ki, ay Maksim müəllim, axı deputatımız olmusunuz, bu rayonu siz yaratmısınız, görün nə pis gündəyik. Onlardan qaçıram. Xızıya gecə gedib, gecə də qayıdıram. Nəvələrim deyəndə ki, Xızıya niyə getmirik, onlara bəzən cavab verə bilmirəm. Çünki camaat içinə çıxa da bilmirəm. O deputatların da, məmurların da yerinə utanıram. Getsinlər camaatla görüşsünlər, niyə gizlənirlər? Kim camaatdan gizlənirsə, demək qorxaq adamdır, yarasadır. Nöqsan deyən kimi, deyirlər ki, müxalifətdəsən? Halbuki, bu yazıq müxalifətçilərin qeybətdən, tənqiddən, danışıqdan başqa heç nəyi yoxdur. Əlləri boş, vəzifələri də yoxdur. Amma elə məmurlar var ki, danışmaya-danışmaya, susa-susa elə əməllər törədirlər ki, insanlar onların əməllərinə nifrət edirlər.

***- Sizin vaxtınızda Azərbaycanın çətin dönəmləri idi, müstəqillik yeni qazanılmışdı. Amma indi başqa dövrdür. Nə üçün indi də bu cür problemlər qalır?***

- Xızıda problemlər ona görə qalır ki, icra başçısı qanunlarla hərəkət etmir. Məmurlar özbaşınalıq edirlər. Yeni Azərbaycan Partiyasını ona görə yaratdıq ki, respublikamız ağır vəziyyətdə, müstəqilliyimiz tük üstündə idi. İndi baxın görün, mənim kimi insanlar haradadır və nə pis vəziyyətə qoyulublar, çoxu bir çox zərbələrlə susdurulublar. O vaxt bizlər sinəmizi qabağa vermişdik. İndi məmurlar səlahiyyətlərindən başqa bütün işlərlə məşğuldurlar. Elə məmur var ki, idarəsinin telefonlarına cavab verməmək tapşırığı verib. Problemlərdən namərdcəsinə qaçırlar. Elə məmur da var ki, kabinetinə arxa qapıdan girib-çıxır ki, vətəndaşlarla görüşməsin. Bugünkü vəziyyət ona görə belədir ki, biz öz prezidentimizə layiqincə xidmət göstərmirik. Eyni zamanda, tamahkar, saxta, ikiüzlü məmurları vaxtında yerindəcə ifşa etmirik. Ölkə başçısını daimi müdafiə edən şəxsəm, bundan sonra da müdafiə edəcəm. Baxın görün, prezident sutkanın necə saatını işləyir, məmurlar neçə saatını işləyirlər. Bu kütləvi informasiya vasitələrində də açıq-aşkar görünür. Hər yerdə cinayətə cəza olmalıdır. Amma Azərbaycanda nədənsə cinayətə cəza olduqca zəifdir, ona görə də bu cür problemlərlə üz-üzəyik. Görürlər ki, Xəzər Aslanov qanunsuzluq etdi, amma ona dəyib-dolaşan olmadı, dərhal o birisi də bundan bəhrələnir. Son zamanlar görməmişəm və eşitməmişəm ki, hər hansı bir icra başçısı yaramaz işlərinə görə vəzifəsindən qovulsun və cəzalansın. Niyə onlar cəzalandırılmamalıdır? Bizim vaxtımızda hansısa nöqsan buraxanda buna görə də ciddi cəza alırdıq. Xəcalət çəkib ərizə yazmaq istəyirdik. Amma indi bu məmurların dünya vecinə deyil. Onların bu cür yaramaz əməllərini dövlətçiliyimizə, xalqımıza və prezidentimizə xəyanət kimi qiymətləndirirəm.

**"Şuluqluq edən icra başçılarını bir müddət göndərələr Naxçıvana Talıbovun tabeliyinə..."**

❑ **Cavanşir ABBASLI**



# Görməmişlərin spiralvarı optimallaşdırılması

Zamin HACI
zaminhaci@gmail.com

"Bax belədir bizim Məmiş,
Görməmiş oğlu, görməmiş"

*(uşaq vaxtı eşitdiyim, müəllifini unutduğum şeir)*

**Bu yaxında təhsil naziri Mikayıl müəllim ölkəmizdə məktəblərin optimallaşdırılacağını bəyan etdi. Tarif Şurası isə kommunal ödənişləri diferensiallaşdırdı. Dünən baxdım, YAP icraçı katibi, baş nazirin müavini Əli Əhmədov Azərbaycanın sıçrayışlı və spiralvari inkişafda yeni fazaya daxil olduğunu bildirmişdir.**

Hərə uca millətin başında bir cür dəlləklik edir, halal olsun. Ancaq nə təhər sıçramışıqsa camaat xaricə getməyə 100 dollar tapa bilmir, gərək oğru kimi kol-kosda gizlənən valyuta alverçilərini axtarasan, hökumət isə onların ov mövsümünü açıq elan edibdir.

Əcaib durumdur gerçəkdən. Sanki hökumət "sıçrayışlı və optimal diferensial inkişafdır, ancaq sıçrayış qırağa olmaz, içimizdə sıçra" deyə işarət vurur. Yoxsa bu nə deməkdir? Camaat xaricə manatla çıxıb orda bu kağızı neyləməlidir?

Bəzən banklar elan edir ki, filan filialımızda dollar olacaq, əlində xaricə bileti olanlar gəlsinlər, hərəyə 100 dollar satarıq. Camaat axışır banka, növbədə qırğın, basabas... Eynilə 80-90-cı illərin növbələridir. Ancaq burada mühüm fərq vardır. O vaxt biz gənəgərçək yağı, arpa çörəyi, 41-ci il Leninqradın blokadasından qalma donuz ətinin qaxacı kimi şeylərin növbəsinə dururduq, indi dollar növbəsinə dururuq. Bu, çox böyük inkişafdır. Kasıb dolları nə edir? Deməli, uca millətimiz varlıdır. Həmçinin, xaricə çıxan, xaricdən gələnlər üçün dollar tələbatı varsa, deməli, ölkəmiz beynəlxalq dairələrin diqqət mərkəzindədir, planetar miqyasda turizm və geopolitika oylağıdır! (Xahiş edirəm bu arqumentlərə görə mənə prezidentin ehtiyat fondundan "İxtiraçı yaltaq iqtisadçıların diferensial prizlənməsi" medalı verilsin. Əziyyət çəkib bu qədər şey fikirləşmişəm).

Bizim bu inkişafımız bir az da Hələbin azad edilməsi əməliyyatına oxşayır. Yəqin xəbəriniz var, bu günlərdə Bəşər Əsədin ordusu rus və iranlı muzdluların köməyi ilə Hələbi müxalif ordulardan təmizlədilər. Ancaq nəyin bahasına? Şəhəri demək olar tamamilə yerlə-yeksan etməklə. 2 milyon yarım əhalisi olmuş Hələbdə indi iti quyruğundan bağlamağa bir salamat deşik qalmayıbdır - ruslar və əsədçilər əllərinə keçən hər cür bombanı *(fosforlu, çəllək bombası, betondeşən, nə bilim, goreşən və sairə tipdə)* Hələbin başına yağdırdılar. İndi şəhər azaddır, lakin içində adam yoxdur. Daha bunun bu cür "azadlığı" kimə lazım idi, bilinmir.

Sözümün canı odur ki, biz də inkişaf eləmişik, ancaq respublikanın inkişafı kimə lazımdır, o, məlum deyildir. Xalq başını götürüb qaçır, yerdə qalanlar da qazın limiti ilə elektrikin diferensialını, toyuq budunun dəyəri ilə uşağın corabı arasındakı qiymət əyrisini hesablamaqla çürüyürlər. Respublikamızın spiralvari inkişafı bir növ də servanta qoyulan, içində çılpaq arvad şəkilləri olan geydirmə "çexski" servis boşqablarına bənzəyir. Baxa bilərsən, ancaq içində yemək olmaz.

Xaçmazın icra başçısı Şəmsəddin Xanbabayev bu cür dekorativ dövlətçilikdə lap qabağa gedibdir. Orda rayonun bir küçəsini cürbəcür gips oyuncaqlarla, qalaça butaforları ilə doldurubdur. Üzdən baxırsan elə bil Ermitajdır. Arxasına keçirsən, görürsən inək bağlanmış plakat imiş. Qabaqdan "Koroğlu Çənlibeldə" heykəlidir, daldan at çidarlamaq üçün yoncalıq.

Sözgəlişi, Şəmsəddin müəllim orda paltar tutqacına (şpilka, yaxud ipəzor - təzə optimal adıdır, Artur müəllim təklif edib) heykəl qoyubdur. Yəni Azərbaycan bu saat dünyada yeganə dövlətdir ki, qurucusuna (Rəsulzadə) heykəl qoymağa dövlət rəsmən vəsait tapmadığını bəyan edib, ancaq şpilkaya heykəl qoyublar. Biz istəsək şpilkanı dövlətimizin banisi də adlandıra bilərik. Ancaq sabunqabı bu istiqamətdə daha yaxşı heykəl olardı, indi söz əlaqədar təşkilatlarındır.

**Jurnalistlər həmin dekorasiya bina haqda Şəmsəddin müəllimə sual veriblər, müəllim deyib həmin fotonu görməmişəm, heç nə deyəmmərəm. Vallah, halal olsun, "görməmişəm" çox əla cavabdır. Bir az vurğunun yerini dəyişsən tam yerinə düşür. Bu cavabı ümumi dövlətçilik cavabı kimi bütün idarələrin menyüsünə salmaq olar, hansı jurnalist nə sual versə, denən, görməmişəm, söhbət bağlansın.**

# "Qaz müharibəsi"ndə mühüm gəlişmə




# Kremlin anti-Azərbaycan planı - ABŞ-dan ilginc xəbərdarlıq

Rusiya enerji daşıyıcıları məsələsindən Azərbaycanı təcrid etmək üçün yararlana bilər; "Türk axını" Azərbaycana təhlükədirmi?; 2017-ci il əsas suala aydınlıq gətirməlidir...

**Tezliklə daxil olacağımız 2017-ci il təkcə dünyanın siyasi xəritəsinə mühüm düzəlişlərlə yadda qalmayacaq. Söhbət həm də enerji qaynaqları və həmin qaynaqların dünya bazarına çıxarılmasında dominantlıq uğrunda aparıcı qaz oyunçuları arasında get-gedə şiddətlənən mübarizədən gedir. Sözsüz ki, Azərbaycan da bu və digər şəkildə həmin mübarizədə yer alır və təbii ki, ən çox Rusiyaya rəqibdir.**

Gələn il isə istər "Şahdəniz-2" qazını Avropaya çatdıracaq Cənub Qaz Dəhlizinin (TAP, TANAP), istərsə də yenidən gündəmə qayıtmış "Türk axını" layihəsinin həyata keçməsində həlledici il olacaq. Hər nə qədər deyilsə də ki, bu iki qaz kəməri bir-birinə rəqib deyil, əksər analitiklərə görə, məhz rəqibdir. Ən azından, bazarda Rusiya qazı ilə Azərbaycan qazı rəqibdir.

Qərbin, ABŞ-ın hədəfi isə məhz qitəni Rusiya qazından daha az asılı eləməkdir. Bu yerdə yada salaq ki, "Türk axını" Yunanıstanla sərhədə məhz TANAP kəməri ilə eyni nöqtədə çıxacaq. Oradan TANAP TAP kəmərinə birləşdiriləcək. "Qazprom" isə "Türk axını" ilə nəql olunacaq təbii qazı həmin məntəqədə yaradılacaq haqda müştərilərə təhvil verməyi planlaşdırır.

***

O da sirr deyil ki, Moskva enerji məsələsindən həmişə Avropaya, Qərbə qarşı siyasi təzyiq instrumenti kimi yararlanmağa çalışır. Ancaq təkcə Qərbə qarşımı? Belə görünür, yox.

"Rusiya enerji daşıyıcıları məsələsindən istifadə eləməklə Azərbaycan və Gürcüstanı təcrid etməyə çalışa bilər". Bu barədə ABŞ-ın ölkəmizdəki və ATƏT-in Minsk Qrupundakı sabiq səfiri, ABŞ Atlantik Şurasının tədqiqatçısı Metyu Brayza "Ameriaknın səsi" radiosunun gürcü redaksiyasına müsahibəsində deyib.

Jurnalistin "İki böyük regional oyunçu - Türkiyə ilə Rusiya arasında əlaqələrin yeni fazaya keçməsi Gürcüstana və Cənubi Qafqaza necə təsir edə bilər" sualına cavabında Brayza Gürcüstana birbaşa təsirin gözlənilmədiyini bildirib. Bununla belə əlavə edib: "Məni daha çox enerji qaynaqları məsələsi narahat edir - nəyin sayəsində ki, Rusiya Azərbaycan və Gürcüstanı təcrid etməyə cəhd edə bilər. Məsələ ondadır ki, "Türk axını" qaz kəmərinin hədəfi Rusiya mavi yanacağının Avropa Birliyinə çatdırılması və Azərbaycanın enerji sferasına sərmayələrin azaldılmasıdır. Fikrimcə, Rusiya strategiyasının bu hissəsi Azərbaycan və Gürcüstana təsirləri gücləndirməyə yönəlib".

***

Qeyd edək ki, artıq "Türk axını" layihəsi ilə bağlı qanun Türkiyə parlamentinin təsdiqindən keçib və prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanıb. Rusiya tərəfi də ilin sonunadək onu ratifikasiya etməlidir.

Azərbaycan isə qardaş ölkənin də maraqlarını nəzərə almaqla məsələyə kifayət qədər xoş məramla baxır, narahatlıq keçirmir, özünü təmkinli aparır. Bu yaxınlarda prezident İlham Əliyev məhz belə bir sülhpərvər yanaşma ortaya qoyaraq bəyan elədi ki, iki kəmərin bir-birinə mane olmayacağına ümidvardır və enerji nəqlinin saxlənməsinə müsbət baxır.

Az sonra Bakıda səfərdə olan İsrailin baş naziri Benyamin Netanyahu da öz ölkəsinin qazının TANAP vasitəsilə Avropaya nəqlində maraqlı olduğunu bəyan eləmişdi. Bu isə Cənub Qaz Dəhlizinin rentabelliyinin daha da artması və Avropanın isə Rusiya qazına ehtiyacının azalması anlamına gəlir.

Ötən saylarımızda vurğuladığımız kimi, İsrail baş nazirinin bu açıqlaması heç də Moskvaya xoş gələ bilməz. Rusiya baş nazirinin müavini Dmitri Roqozinin Netanyahudan cəmi iki gün sonra Bakıya təşrif buyurmasını da bir çox ekspertlər həm də bu kontekstdə qiymətləndirdilər.

Odur ki, M.Brayzanın Azərbaycanla bağlı yuxarıdakı xəbərdarlığı qəribçiliyə salmağa dəymir və indi o, strateji ilə daxil olmaq ərəfəsində ikiqat önəm kəsb edir.

***

Əlavə edək ki, Cənub Qaz Dəhlizinin özəyini təşkil edən TANAP boru kəmərinin işə düşməsi "Şahdəniz-2" layihəsi üzrə qaz hasilatına başlanması vaxtı ilə uzlaşdırılıb və 2017-ci ilə hesablanıb. Bu layihə üzrə Azərbaycan təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşınacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Bu xətt 19 km-i Mərmərə dənizindən keçməklə 1850 km təşkil edəcək.

5 il ərzində reallaşması nəzərdə qaz dəhlizinin ümumi dəyəri 7 milyard ABŞ dolları-dır. 4 mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq. Həmin ildən etibarən Azərbaycandan Türkiyəyə ilk qaz nəqlinə başlanacaq. Başlanğıcda ildə 16 milyard kubmetr həcmində ötürüləcək qaz sonradan 24 və 31 milyard kubmetrə çatdırılmalıdır. 2020-ci ilin əvvəlindən TANAP TAP-a birləşdiriləcək və təbii qaz Cənubi Qafqaz Boru Xətti ilə Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdırılacaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard, 2023-cü ildə 23, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılmalıdır.

**Layihədə Azərbaycan 58, BOTAŞ 30, bp isə 12 faiz paya malikdir.**

❑ Siyasət şöbəsi



# Rusiyadan azərbaycanlı milyarderə xəbərdarlıq

**Rusiya Federal Antiinhisar Xidməti (RFAX) "Lukoyl" şirkətinin prezidenti Vahid Ələkbərova xəbərdarlıq edib. Virtualaz.org xəbər verir ki, bu barədə RFAX məlumat yayıb. Qurum V.Ələkbərovun avtomobil yanacağının qiymətinin artacağı ilə bağlı dekabrın 13-də vesti.ru-ya verdiyi açıqlamasının antiinhisar qanunvericiliyinin pozulmasına gətirib çıxara biləcəyini bildirərək, onun hərəkətini "yolverilməz" adlandırıb.**

"Vahid Ələkbərov avtomobil yanacağının qiymətlərinin artacağı haqda bəyanat verib, hansı ki, Rusiya Federasiyası neft məhsullarının daxili bazarında tələbatın və təklifin disbalansına gətirib çıxara bilərdi".

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

# Bakının başlatdığı "Sülh Platforması"ndan İrəvana üç mühüm zərbə

## Zahid Oruc: "Erməni birliyi" haqda təbliğat iflasa uğrayır, Sərkisyanın "iki xalq dinc yanaşı yaşa bilməz" hökmü puç olur və səngərdə dayanan əsgərlə arxa cəbhədəki mülki insanların arasında uçurum yaranır"

**ABŞ-dakı erməni diasporunun fəal üzvü Anait Sinanyan erməni və azərbaycanlı fəalların 2016-cı ilin noyabrında Bakıda hazırlayıb imzaladıqları "Ermənistan və Azərbaycan arasında sülh üçün Platforma"nı dəstəkləyib və imzalayıb. Daha bir erməninin, özü də ABŞ-da yaşayan, diaspor üzvü olan erməninin "Sülh Platforması"na qoşulması dünyada mövcud olan erməni lobbisi və erməni diasporu mifinin dağılmasının növbəti təsdiqidir.**

Qeyd edək ki, Platformanın yaradılması beynəlxalq səviyyədə də təqdir edilir. "Azərbaycan siyasi ekspertləri və hüquq müdafiəçiləri tərəfindən yaradılan Ermənistan-Azərbaycan sülh platforması Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı müxtəlif qruplar arasında əlaqələrin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətlidir"- deyə, Avropa İttifaqının (Aİ) Azərbaycan nümayəndəliyinin rəhbəri Malena Mard deyib. Ermənistan hakimiyyəti isə prosesdən çox narahatdır və artıq Xankəndidə platformanı müdafiə edən bir erməni yazıçı həbs edilib.

**Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni** AzVision.az-a deyib ki, başlanan proses Sərkisyan rejimini panikaya salıb: "Rejim başa düşür ki, qısa zamanda minlərlə insan bu platformaya qoşula bilər. Bu isə onların sonu deməkdir. Artıq erməni xalqı işğala son qoyulmasını tələb edir, buna öz etirazını bildirir və xalq diplomatiyasından istifadə edərək münaqişənin həllinə töhfə vermək istəyir".



**Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc** "Yeni Müsavat"a bildirdi ki, "Sülh platforması" ideyası ərazi bütövlüyümüz uğrunda aparılan savaşın diplomatik yolla davamıdır: "Yəni səngərdə dayanan əsgər Bakıda hər hansı görüşlərin, birgə konfransların nəticəsindən asılı deyil və düşmənin atəşinə istənilən vaxt kəskin zərbələr vura bilərlər. Hazırkı təşəbbüs hərbi yolu inkar etmək, yaxud onu əvəzləyərək yeganə alternativ kimi təslimçiliyə razı olmaq anlamında qəbul oluna bilməz. Halbuki əsas məqsədimiz Dağlıq Qarabağda yaşayan əhalinin uzun illər ərzində İrəvanın avantürası ilə dövlət qurmaq xəyalı ilə ayağa qalxaraq məruz qaldığı faciələrdən və regionu daimi təhlükə qarşısında saxlayan müharibə ab-havasından kənarlaşaraq, yeni yolların axtarılmasıdır. Azərbaycan bütün erməniləri məhv etməyi, milli mənsubiyyətinə görə harada yaşamasından asılı olmayaraq, onları qətlə yetirməyi qarşısına məqsəd qoymayıb. Əksinə, erməni nazir Vihen Sarkisyanın təşəbbüsü ilə parlamentdə iki oxunuşdan keçən və cəmiyyətdə böyük narazılıq doğuran qanun əsasında Qarabağda vuruşaraq həyatını itirən şəxslərin ailəsinə 20 min dollar yardım layihəsi mahiyyətcə savaş niyyətinə xidmət edir və hakimiyyətin hansı mənfur planlarda olduğunu yaxşı göstərir. Hökumətin valideynlərlə müqavilə bağlayaraq, gənclərin başına haqq qoyması, onların qurban gedən canına görə xalqdan vergi yığıb sonra guya geri qaytarması və özünü vətənpərvər notda təqdim etməsi fonunda Azərbaycan ermənilərə təhlükəsizlik qarantiyaları vəd edir".

**Lakin Z.Oruc xatırlatdı ki, burada konkret şərt var:** "Ölkəmizin ərazi bütövlüyünü tanımaqla, Konstitusiyamıza hörmət göstərməklə və xalqımıza qarşı keçmişdə baş vermiş qəddarlıqları pisləməklə o adamlar dövlətimiz tərəfindən vətəndaş haqlarına layiq görüləcək və birgə yaşamlarına təminat veriləcək. Ona görə də "Sülh Platforması"na erməni hakim dairələri süngü ilə cavab verib. Onların hərbi diktaturası yalnız silahlı savaş fəlsəfəsinə söykəndiyindən belə cəhdlərə normal yanaşa bilmirlər. Nəticədə "erməni birliyi" haqda təbliğat iflasa uğrayır, Sərkisyanın "iki xalq dinc yanaşı yaşa bilməz" hökmü puç olur və səngərdə dayanan əsgərlə arxa cəbhədəki mülki insanların arasında dərin uçurum yaranır. Unutmaq olmaz ki, ikinci dünya müharibəsinin ən şiddətli çağında Stalin "bütün alman xalqını düşmən hesab etmədiklərini" bəyan edirdi və o zamanın informasiya vasitələri həmin qərarı aylarla daxili-xarici məkanda təbliğ edirdi. Məqsəd hər iki cinahda yaşayan mülki insanları-almanları faşizmin yemi olmaqdan çıxarmaq idi".

**Z.Oruc hesab edir ki, ona görə də ermənilərin Azərbaycan tərəfindən səngərə daxil olacaq günə qədər bütün fərqli yolları aramaq gərəkdir:** "Əslində 90-cı illərdə bəlləri olub. Ərazilərimizin işğaldan azad olunmasına xidmət edən bütün yollar məqbuldur. 2001-ci ildə mərhum prezident Heydər Əliyevin rəhbərliyi ilə parlamentdə keçirilən dinləmələrdə keçmiş nazir Həsən Həsənov ibrətamiz bir söz dedi. Onu xatırlatmaqda fayda olduğunu düşünürəm. Həsən müəllim dedi ki, müharibə zamanı ali baş komandanlar məsuliyyəti müəyyən qədər xalqla, hərbçilərlə - əsgər və zabitlərlə bölüşür, lakin sülh vaxtı savaşı təkbaşına aparırlar. Ona görə də hazırda sözügedən layihəyə qoşulan ermənilər imzaları ilə səngərdə qətlə yetirilən həmvətənlərini xilas edəcəklərsə və Qarabağın Azərbaycan tərkibində qalaraq, birgə gələcək quruculuğu məramına yardımçı olacaqlarsa, onları alqışlamaq lazımdır".

❑ E.PAŞASOY

# Qarabağ caniləri bir araya gəlir- Ermənistan cəmiyyəti kimi seçəcək?

## Seyran Ohanyan-Robert Köçəryanın bir araya gəlməsi sonda Serj Sərkisyanın işinə yaraya bilər; **politoloq:** "Qarabağ klanı" özündən başqa kimsənin siyasi arenada güclü mövqedə olmasını istəmir"

**Bu ilin yayında prezident Sərkisyanla münasibətləri kəskinləşəndən sonra Ermənistanın müdafiə naziri postundan uzaqlaşdırılan Xocalı qatili Seyran Ohanyan indi də siyasi proseslərə qatılmağa qərar verib.**

S.Ohanyanın siyasi həyatdakı iştirakı prosesi tamamilə eks-prezident Robert Köçəryanın nəzarətində olacaq. Modern.az bununla bağlı Ermənistan mediasına istinadən xəbərində yazıb. "Ohanyana Köçəryanın tərəfdarları olan bütün siyasi qüvvələrin özəyini toplamaq vəzifəsi həvalə olunub. Burada hətta Vardan Oskanyan, yaxud Demokrat Partiyasından Aram Sərkisyan da təmsil olunacaq", - erməni mediası bildirir.

Digər məlumata görə, yaxın müddətdə hakim Respublikaçılar Partiyasını tərk edib bu hərəkata qoşulanların olacağı istisna deyil. "Bizim məlumatımıza görə, Vardan Oskanyan Robert Köçəryanı bu hərəkata Viktor Dallakyanın da qoşulmasının vacib olduğuna inandıra bilib. Belə görünür ki, Seyran Ohanyan artıq mövcud olan siyasi qüvvələrə qoşulmayacaq", - yazıda vurğulanıb.

Görünən budur ki, işğalçı ölkədəki parlament seçkiləri ərəfəsində Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanla eks-prezident Robert Köçəryan güclərini birləşdirirlər. Belə çıxır ki, parlament seçkilərində hərbi canilərdən ibarət olan "Qarabağ klanı" təkcə Sərkisyanın rəhbərlik etdiyi hakim partiyaya qarşı deyil, sülh mövqeyi ilə çıxış edən Ter-Petrosyana qarşı da mübarizə aparmalı olacaq. Bəs, Ermənistan cəmiyyəti onların hansını seçəcək, Ermənistanı ağır durumdan çıxartmaq istəyən Ter-Petrosyanı, yoxsa savaş ritorikalı "Qarabağ klanı"nımı? Canilərin koalisiyası nələr vəd edir?


Robert Köçəryan


Seyran Ohanyan

**Politoloq Elçin Mirzəbəyli** işğalçı ölkədəki prosesləri "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, olduqca mürəkkəb bir vəziyyət yaranıb və proseslərin necə inkişaf edəcəyini tam dəqiqliyi ilə proqnozlaşdırmaq mümkün deyil: "Amma Ermənistanda keçiriləcək seçkilərlə bağlı bir vacib məqamı nəzərdən qaçırmamaq lazımdır: bu da Rusiya faktorudur. Robert Köçəryan da, Ohanyan da, Ter-Petrosyan da Ermənistanın indiki hakimiyyəti kimi Moskvanın iradəsindən kənar bir addım belə atmaq iqtidarında deyillər. Köçəryan-Ohanyan birliyi də, Ter-Petrosyan da Kreml texnoloqlarının situasiyaya uyğun ortaya çıxara biləcəyi oyunçulardır. Ter-Petrosyanın Erməni Milli Konqresinin qurultayında səsləndirdiyi fikirlər təsadüfən ortaya çıxmamışdı. Onun çıxışındakı ən önəmli məqam hazırda danışıqlar prosesində ortada olan sənədlə bağlıdır. Ter-Petrosyan çıxışında dolayısı ilə Kazan prinsiplərini dəstəklədiyini bəyan edib. Bu prosesdə aparıcı mövqe isə Rusiyaya məxsusdur. Əslində Petrosyan münaqişənin həllində Rusiyanın həlledici rola sahib olduğunu da açıq şəkildə vurğulayıb. Bu isə o anlama gəlir ki, Erməni Milli Konqresinin sədri və onun rəhbərlik etdiyi qurum növbəti seçkilərdə "sülh tərəfdarı" roluna layiq görülüb".

**E.Mirzəbəyli hesab edir ki, bu proseslərdə davakar rolunu oynamaq Köçəryan-Ohanyan birliyinə həvalə olunub:** "Seçkilərə qədər yeni oyunçuların da ortaya çıxması mümkündür və onlara da çox güman ki, müəyyən rollar həvalə olunacaq. Moskva istənilən vəziyyətə uyğun öz alternativlərini yaradır və yaradacaq. Onlardan hər hansı birinin önə çıxması isə regionda və dünyada baş verən proseslərdən, Rusiyanın maraqlarından və bu maraqların necə təmin olunub-olunmayacağından asılıdır. Bütün hallarda Ermənistan cəmiyyəti seçməyəcək".

"Qarabağ klanı"nın Levon Ter-Petrosyanla ittifaqı problematikdir". Bunu isə **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi. Ekspertin sözlərinə görə, ümumiyyətlə, bundan sonra Ermənistanda həm hakimiyyətdə, həm də müxalifətdə iki istiqamət öz sözünü deyəcək: "Birinci istiqamətə Dağlıq Qarabağda anadan olanlar və separatçılığın başında dayanan siyasətçilər və hərbçilər rəhbərlik edəcəklər, ikinci istiqamət isə Ermənistanda doğulan və Qarabağ probleminin həllinə bir qədər fərqli baxış nümayiş etdirən siyasətçilərdən formalaşacaq. İndinin özündə Ermənistan hakimiyyəti "Qarabağ klanı"nın nəzarətindədir. Ancaq müxalifətdə də fərqli durum deyil. Əgər keçmiş prezident Robert Köçəryan keçmiş müdafiə naziri Seyran Ohanyanla birgə müxalif blok formalaşdıracaqlarsa, prezident Serj Sərkisyana real müxalifət elə onlar olacaq. Levon Ter-Petrosyan son çıxışında Dağlıq Qarabağ münaqişəsinin "mərhələli həll" planına üstünlük verdiyini bir daha bəyan etdi. O zaman bu mövqeyinə görə onu iqtidardan elə bugünkü hakimiyyət və müxalifət liderliyinə iddialı olan şəxslər yıxdılar".

**E.Şahinoğlu bildirdi ki, "Qarabağ klanı" Ermənistan əsilli siyasətçilərə və partiyalara inanmır:** "Bu klan düşünür ki, hakimiyyət Ermənistan doğumlu siyasətçilərin nəzarətinə keçən kimi onlar Levon Ter-Petrosyan kimi hərəkət etmək istəyəcək və münaqişənin mərhələli həll yolu vasitəsilə həm Azərbaycan, həm də Türkiyə ilə barışmağa çalışacaqlar. Ona görə də "Qarabağ klanı" özündən başqa kimsənin siyasi arenada güclü mövqedə olmasını istəmir. Buna görə də Ermənistan bu klanın caynağından qurtulmayana qədər nə inkişaf edəcək, nə də təhlükəsizlik problemlərini həll edəcək".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

**İran prezidenti Həsən Ruhaninin Ermənistana səfəri son günlər Azərbaycan gündəminin əsas müzakirə mövzusu oldu. İsrailin baş naziri Benyamin Netanyahunun ölkəmizə səfərindən az sonra gerçəkləşən Ruhaninin İrəvan səfəri ciddi etirazlar doğurub. Ölkə ictimaiyyətinin bütün təbəqələri rəsmi Tehranın ermənipərəst mövqeyini sərt şəkildə tənqid edirlər.**

# Ruhaninin İrəvan səfəri ətrafındakı söz-söhbət səngimir

## Səfər Netanyahunun Bakıya gəlişindən, yoxsa erməni sevgisindən doğur; **Qabil Hüseynli:** "İran müstəqil Azərbaycanı həzm edə bilmir, onun üçün İsrail bir bəhanədir"

Müsəlman ölkəsi olan İranın molla rejiminin rəhbərinin İranda ermənipərəst mövqeyini açıq şəkildə nümayiş etdirməkdən çəkinməməsi hiddətlə qarşılanıb. Çoxları bu səfərin Azərbaycanın dini camiəsində bəzi qüvvələrin susqunluğu ilə qarşılanacağını düşünürdü. Amma tam əksi oldu. Dini düşərgə daxilindən bəlkə də müstəqillik illəri ərzində ilk belə sərt etiraz İranın ünvanına yönəldi.

Ruhaninin səfərinin bu vaxta təsadüf etməsi ilə bağlı müxtəlif iddialar var. Əksəriyyət İranın əvvəlki zamanlarda olduğu kimi, erməni mövqeyindən çıxış etdiyini əsas gətirərək, bu səfərin təsadüf olmadığını düşünür. İddialardan biri də, İsrailin baş nazirinin 13 dekabr Bakı səfəri, burada keçirdiyi görüşlər, xüsusilə, Azərbaycan prezidenti İlham Əliyevlə görüşü zamanı hər iki tərəfin verdiyi mesajlarla bağlıdır. Rəsmi Tehranın Azərbaycan-İsrail yaxınlaşmasından ciddi əndişələndiyi və bu səfəri gerçəkləşdirməklə Azərbaycana mesaj ünvanladığı bildirilir.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli** bildirdi ki, İran hər zaman Ermənistana ən böyük köməkliyini edib: "Rəsmi Tehran Ermənistanın yanında olduğunu dəfələrlə göstərib. Araz çayı üzərində böyük körpü salıb və nəticədə Ermənistanı tam blokadaya almaq mümkün olmayıb. İran ermənilərin ehtiyacı olan bütün məhsulları göndərib. Ermənistanı korluq çəkməyə bir növ qoymayıb. Ermənistan Azərbaycana təcavüz etdiyi andan İranın da bu ölkəyə tam dəstəyi dövrü başlayıb. İran müstəqil Azərbaycanı həzm edə bilmir. Müstəqil Azərbaycanın hərtərəfli inkişafı, onun regionun lider dövlətinə çevrilməsi, dünya siyasətində aktiv rol oynaması İranda yaşayan 40 milyona yaxın azərbaycanlıya ruhlandırıcı nümunədir. İran yaxşı başa düşür ki, Azərbaycan tarixin hökmü ilə gec-tez birləşəcək. Bunun nə vaxt olacağına tarixin özü hökm verəcək. Bu səbəbdən İran üçün İsrail məsələsi bir bəhanədir. Netanyahu gəlməsəydi, guya Ermənistana kömək göstərilməyəcəkdi? İsrailin baş naziri Azərbaycana gələnə qədər Ermənistana edilən yardımın məbləği bəzi hesablamalara görə 2 milyarda yaxındır. Özünü müsəlman dünyasının lideri sayan molla rejimi xristianpərəst siyasətindən əl çəkmir və bu səbəbdən də Ermənistana verdiyi dəstəyi dayandırmır. Harada qaldı bu ölkənin müsəlman təəssübkeşliyi, İslam dəyərlərinin keşiyində dayanması? Belə görünür ki, İranda hakimiyyətdə təmsil olunanlar sona qədər islami dəyərlərə sadiq deyillər. Onlar üçün fars şovinizminin ortaya atdığı dəyərlər digərlərindən yüksəkdə dayanır. Ermənistandan Azərbaycana verilən mesajların heç bir əhəmiyyəti yoxdur. Azərbaycan suveren dövlətdir, kiminlə münasibətlərini necə qurmaq istəyirsə, bu istiqamətdə də siyasət yürüdür. Eyni zamanda ölkəmiz ərazi bütövlüyünü təmin etmək üçün sərfəli olan ölkələrlə əməkdaşlıq edir. Mərhum Heydər Əliyevin və prezident İlham Əliyevin dövründə İrana müxtəlif səfərlər olub. Bunların birində mən də rəsmi nümayəndə heyətinin tərkibində olmuşam. İranla hər cür dialoq aparılıb. İranın Azərbaycana kömək etmək üçün onlara hər cür xahişlər çatdırılıb, həm o zamanlar mən getdiyim vaxt prezident olan Rəfsəncaninin, həm də Xamneyinin dövründə. Amma onlar Azərbaycana nə kredit verməkdə, nə də hərbi yardım göstərməkdə nümunə olacaqlarını nümayiş etdirməyiblər. Əksinə, Ermənistana gündəlik tələbat malları deyil, hərbi sənaye məhsulları da göndərirlər. Xatırlayıram ki, bir dəfə mərhum Heydər Əliyevlə döyüş bölgələrini gəzərkən səngərdə olduğumuz vaxt başımızın üzərindən bir mərmi vıyıltı ilə keçdi və yaxınlığımıza düşdü. Amma mərmi partlamadı. Heydər Əliyevin göstərişi ilə həmin mərmi götürüldü və onun üzərində İranda hazırlanması ilə bağlı etiket göründü. Sonradan bu barədə Rəfsəncaninin diqqətinə məlumatlar çatdırılanda o, belə bir şeyin ola bilməyəcəyini söylədi. O zaman qəti şəkildə əmin olduq ki, İran Azərbaycanın haqq işinə dəstək verən deyil. Oradakı soydaşlarımızda kifayət qədər passivdirlər. Bu gün İranın Ermənistana verdiyi dəstəyə haqq səslərini ucalda bilmirlər".



Qabil Hüseynli

**Politoloq Azərbaycan-İsrail münasibətlərində İran əleyhinə heç bir nüansın olmadığını da qeyd etdi:** "Biz sadəcə, ərazilərimizi istila etmiş erməniləri qovub çıxarmaq istəyirik. Məgər bu, İran üçün ziyan gətirər, yaxud onlar üçün sərfəli deyil? Görünür sərfəli deyil ki, Azərbaycanı zəif salmaq, Ermənistanı üzərimizdə gücləndirmək üçün belə bir siyasət aparırlar. Hətta iri iqtisadi layihələri Ermənistan vasitəsilə həyata keçirməyə çalışırlar. Ermənistanın təcavüzkar ölkə olması İranı narahat etmir? Onların ermənilərə olan sevgilərinin, göstərdikləri qayğıların kökü nədən qaynaqlanır? Xristianın dəyirmanına su tökməkdən başqa bir iş görmürlər. Görünən odur ki, son vaxtlar Rusiya ilə münasibətləri daha da yaxşılaşan İran ya qəlblərinin hökmü, ya da Rusiyanın təsiri ilə onun əlaltısı olan Ermənistana canfəşanlıqla yardım etməyə başlayıb".

❑ Cavanşir ABBASLI

# Cənubi Qafqazda hansı ölkədən daha çox mühacir var?

## Ermənistanda aparılan sorğu nəticəsində məlum olub ki, əhalinin 40 faizi doğma vətənini tərk etməyə istəyir

**Son 15 il ərzində dünyada miqrantların sayı 41 faiz artıb və 2015-ci ildə 244 milyon nəfərə çatıb. Bu barədə BMT-nin məlumatında bildirilib. Məlumata görə, bu göstəricinin təqribən 20 milyonunu qaçqınlar təşkil edir. Beynəlxalq mühacirlərin say artımı dünya əhalisinin artım tempini üstələyir. Nəticədə 2015-ci ildə miqrantların planet sakinlərinin ümumi sayı arasında payı 2000-ci ilin 2,8 faizinə nisbətdə 3,3 faizə çatıb.**

*Bəs, Cənubi Qafqaz ölkələrində vəziyyət necədir?*

2013-cü ildə Ermənistanda aparılan sorğunun nəticəsində məlum olub ki, əhalinin 40 faizi doğma vətənini tərk etmək istəyir. Əhalinin öz ölkəsini tərk etməsinə görə keçmiş SSRİ respublikaları arasında birinci yerdədir. Bildirilir ki, buna səbəb Ermənistanda sosial-iqtisadi vəziyyətin gərginliyi və işsizliyin artmasıdır. 2013-cü il üçün aparılan sorğu nəticəsində müəyyənləşdirilib ki, Azərbaycan və Gürcüstanda əhalinin yalnız 8-10 faizi səyahət məqsədilə xaricə getmək arzusundadırlar.

2014-cü ildən isə statistikada bir qədər dəyişiklik var...

Belə ki, statistikaya nəzər saldıqda görünür ki, 2014-cü ilin sonlarından başlayaraq ölkədə iqtisadi-siyasi vəziyyətin ağırlaşması ilə başlayan miqrasiya prosesi artan xətlə davam edir. Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, 2012-ci ildə ölkəni 200 nəfər, 2013-cü və 2014-cü illərdə 800 nəfər daimi yaşayış üçün tərk etmişdisə, 2015-ci ildə bu rəqəm 1600 nəfər olub. Bu isə 2014-2015-ci illər arasında daimi yaşayış üçün ölkədən miqrasiya edənlərin sayının iki dəfə artması deməkdir. Azərbaycandan mühacirət edənlərin 2016-cı il üçün statistikası hələ ki, açıqlanmayıb.

Gürcüstanda da oxşar vəziyyət müşahidə olunur. Belə ki, statistikaya görə, Gürcüstandan 2015-ci ildə 3 min 400 nəfər mühacirət edib. Bu barədə ölkənin Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, 2014-cü ildə Gürcüstandan mühacirət edənlərin sayı 6 min 500 nəfər olub və immiqrasiya sahəsində mənfi saldo 3 min 100 nəfər təşkil edib.

Ötən illər Ermənistanın vəziyyətini daha pisləşib. Belə ki, "Eurasianews" saytı yazır ki, bu ölkəni müstəqillik qazandığı 1991-ci ildən bəri 635 minə yaxın insan tərk edib və əhalinin sayı tarixdə ən aşağı göstərici sayılan 3 milyondan da aşağı düşüb. Məlumatda Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə görə həm iqtisadi, həm də siyasi baxımdan təcrid olunduğu və Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi bildirilir. Vurğulanır ki, ölkə Rusiyadan olan investisiyalardan və idxaldan asılıdır.

**Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov "Yeni Müsavat"a bildirib ki, miqrasiya axınlarına səbəb olan bir sıra amillər var:**

"Əsasən də bu amillər daha çox özünü iqtisadi müstəvidə büruzə verir. Təbii ki, maddi vəziyyəti aşağı olan, müəyyən mənada yaxşı həyat arzulayan, xaricdə təhsil almaq istəyənlər miqrasiya etmək qərarına gəlirlər. Bu baxımdan da miqrasiya axınları ilə bağlı hər hansı bir proqnoz verilən zaman yuxarıdakı faktorlar nəzərə alınmalıdır. İstənilən halda həmin amillər daha güclü olduqda bundan əlavə siyasi təlatümlər, hərbi münaqişələr olduğu zaman da insanların miqrasiya qərarı güclənir. Azərbaycanda son 3-5 ilin statistikasına nəzər saldıqda görürük ki, bizdə miqrasiya axınları daha çox əmək miqrasiyası xarakteri daşıyır. Bu o deməkdir ki, insanların müəyyən bir qismi əmək fəaliyyəti ilə məşğul olmaq üçün xarici ölkələrə üz tuturlar. Onlar il ərzində ən azı bir dəfə öz ölkələrinə qayıdırlar və ailələri də burada qalır. Təbii ki, vətəndaşlıqdan və daimi qeydiyyatdan da çıxmırlar. Lakin Ermənistana diqqət etsək görərik ki, orada proses daha çox emiqrasiya xarakteri daşıyır. Yəni insanlar ölkə hüdudları birdəfəlik tərk edir, vətəndaşlıqdan çıxırlar. Çünki onlar Ermənistanda hər hansı bir formada öz gələcək talelərini görmürlər. Ölkədə hər hansı bir iqtisadi layihələr həyata keçirilmir, siyasi mühit də gərgindir. Nəticədə sadə erməni ailəsi ölkəsini birdəfəlik tərk edib, başqa ölkəyə üz tuturlar. Hətta vəziyyət o yerə çatıb ki, onlar son zamanlar Azərbaycana da üz tuturlar".




Ekspert bildirib ki, Gürcüstanda situasiya bir qədər fərqlidir: "Gürcüstan bu gün Avropa İttifaqına (Aİ) inteqrasiya olunmaqda olduğu üçün, orada realizə edilən bir çox proqramlar sırf Aİ-la Gürcüstan arasında miqrasiya axınlarını müsbət təsir göstərə biləcək konteksdə olan proseslərdir. Yəni üç ölkənin miqrasiya xəritəsinə nəzər saldıqda, tamamilə fərqli proseslərin şahidi oluruq. Azərbaycanda hökumət konkret olaraq icra qurumları qarşısında öhdəliklər qoyub. Hansısa bir gərginliklərin olmasına heç kim inanmır. Cəmiyyət özü sabit və inkişaf xətti üzrə öz həyatını yaşayır. İctimai-siyasi mühitdəki sabitlik, insanların həmin ölkədə qalmasının bir növ vacib şərtlərindən biridir. Bu sabitlik olduğu müddətdə isə Azərbaycandan gedənlərin yox, gələn miqrantların sayı artacaq. Son illərdə statistika göstərir ki, Azərbaycan əcnəbi miqrantlar üçün cəlb edici ölkəyə çevrilib".

❑ Əli RAİS

**Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın məlum çıxışına rəsmi İrəvan hələ ki, reaksiya verməyib. Ancaq həm Ermənistanda, həm də Azərbaycanda onun Sərkisyan iqtidarına yönəlik mesajları ciddi müzakirə mövzularından bidiridir. Ter-Petrosyan onu da deyib ki, masada qarşılıqlı güzəştlərlə bağlı 1997-ci ildən olan eyni təklif var. Ter-Petrosyan doğrumu deyir? Mövzu ilə bağlı söhbət etdiyimiz sabiq xarici işlər naziri Tofiq Zülfüqarovdan ilk olaraq bu suala cavab istədik.**

# "Unutmayaq ki, Ter-Petrosyan ermənilərin ağıllı millətçisidir"

## Tofiq Zülfüqarov: "Bu işğallar onun prezidentliyi zamanı həyata keçirilib, Xocalı soyqırımı baş verib"

- Təbii ki, sənəd tamamilə həminki deyil. Amma onun əsas fəlsəfəsi qalır. Müxtəlif elementlər ixtisar olunur, yaxud əlavə edilir. Amma Madrid sənədi götürsək, elə üslub olaraq mərhələli həlldir. Ümumiyyətlə, digər bir üslub mümkün deyil. Bunu hamı başa düşür. Sadəcə olaraq danışıqları dalana salmaq üçün ermənilər belə bir təbliğat aparırlar ki, biz paket variantını istəyirik. Alma mərhələli həll variantından ayrı bir variant ümumiyyətlə, mümkün deyil.

**- Tofiq bəy, az qala 20 ilə yaxın masa üzərinə qalan, ancaq həllə gətirməyən bir sənədi Ter-Petrosyanın yenidən gündəmə gətirməsi nəyisə dəyişə bilərmi?**

- Köçəryan-Sərkisayan dəstəsi vaxtilə Ter-Petrosyana irad tuturdular ki, bu, Ermənistanın marağına uyğun sənəd deyil. Amma Ter-Petrosyan dolayı yolla Sərkisyana və Köçəryana bildirir ki, üstündən 19 il keçsə də, heç nə dəyişməyib. Yeganə dəyişən bir şey olub, Azərbaycan güclənib. Yəni ondan qabaq siyasi, iqtisadi, müdafiə ilə bağlı paritet mövcud idisə, indi o paritet pozulub. Artıq hamı bunu başa düşür. Ter-Petrosyan hesab edir ki, biz vaxtı yenə də uzatsaq, vəziyyət daha da pisləşəcək.

**- Eks-prezidentin erməni hakimiyyətinə qəbul etdirmək istədiyi variant Azərbaycan üçün nə dərəcədə məqbuldur?**

- Təbii ki, onun təklif etdiyi variant mərhələli həllə onun baxışıdır. Yəni bu varianta da Azərbaycan tərəfinin iradları, düzəlişləri olub. Amma son olaraq təbii ki, Azərbaycan bunu qəbul edib. Bir şeyi qeyd etmək istəyirəm. Ter-Petrosyan orada iki məsələyə toxunmayıb. Birinci məsələ: çox qısa şəkildə danışır ki, üçüncü qüvvələrin, ələlxüsus da Rusiyanın rolu nədən ibarətdir. Problem ondadır ki, o vaxt da, indi də bu planların icrasının qarşısında duran üçüncü qüvvələr idi. Müxtəlif mərhələlərdə bu qüvvə Qərb, yaxud Rusiya olub. Onun təklif etdiyi strategiyada bu məsələ necə həll olunacaq, o, bəlli deyil. İkinci məsələyə də qəsdən toxunmur. Söhbət Qarabağda olan vəziyyətdən gedir. O deyir "müvəqqəti status". Amma bunu açıqlamır. Fikrimcə, bu məsələyə qəsdən toxunmur ki, tənqidə məruz qalmasın.

**- Belə iddialar var ki, keçmiş prezident həm də Sərkisyanın mövqeyindən çıxış edir...**

- Mən bir problemi görürəm: üçüncü qüvvələrin məsələyə münasibətini nəzərdə tuturam. Çünki əgər onlar irəliləyiş istəsəydilər, təbii ki, Ermənistana "İsgəndər" raketlərini ötürməzdilər. Çünki apreldən sonra Ermənistana təzyiq var idi, bunu cənab prezident də demişdi. Birdən-birə bu münasibət dəyişdi. ABŞ Ermənistana kəşfiyyat-müşahidə avadanlıqları verdi, Rusiya isə raket. Demək olar ki, ondan sonra proses dayanıb. Mən hesab edirəm ki, bu, birbaşa üçüncü qüvvələrin prosesə mənfi müdaxiləsidir. Mən təəccüb edirəm ki, Azərbaycan tərəfi rəsmi olaraq bu addımları tənqid etməyib.



**- Prezident təzyiqlərin olduğunu demişdi...**

- Prezident demişdi. Amma raketlərin və kəşfiyyat avadanlıqlarının ötürülməsi barədə heç nə deyilməyib. Hətta bundan əlavə, xarici işlər naziri Hamburqda çıxış edəndə Rusiyanın vasitəçiliyini qeyd etdi və şəxsən Putinə təşəkkür etdi. Bu, qəribə bir bəyanat idi. Raketlərin ötürülməsindən iki ay keçməmiş təşəkkür bildirilməsi nə qədər məqsədəuyğun idi? Yəni bu məsələdə suallar var.

**- Hesab olunur ki, Rusiyanın icazəsi olmadan Ermənistan "İsgəndər"lərdən Azərbaycana qarşı istifadə edə bilməz...**

- Çox şeylər demək olar. Amma elə ondan sonra ermənilər danışıqlardan qaçırlar. Hər halda nazir belə deyir. Əgər bu, Rusiya tərəfindən prosesə faydalı müdaxilə idisə, nəyə görə ermənilər bu danışıqlardan qaçırlar? Ondan sonra ermənilər dedilər ki, biz özümüzü müdafiə baxımından daha arxayın hiss edirik və s.

**- Ardınca da Ter-Petrosyan səhnəyə çıxır, 19 ildən sonra eyni çıxış yolunu göstərir. Bunun arxasında Serj Sərkisyanın da iradəsi dayana bilərmi?**

- Çətin. Mən hesab edirəm ki, bu, Ter-Petrosyanın cəhdidir. Əgər vasitəçilər danışıqların bərpa olunmasını, sülh prosesinin irəli getməsini istəsələr, onlar Ter-Petrosyanın siyasətinə, onun partiyasına dəstək verəcəklər. O baş verəcək, yoxsa baş verməyəcək, bu, sual altındadır. Çünki ondan qabaq baş verən hadisələr göstərdi ki, elə bil vasitəçilər sülhə maraqlı deyillər. Baxaq, görək son addımların nəticəsi nə olacaq. Yəni hamı başa düşür ki, üçüncü qüvvələrin prosesə təzyiqi və dəstəyi olmasa, irəliləyiş mümkün deyil. Ona görə mən hesab edirəm ki, raketlərin, kəşfiyyat avadanlıqlarının ötürülməsi prosesi dayandırıb. Bu, proses üçün çox mənfi bir hadisədir.

**- Bəs, hazırkı situasiyada Ter-Petrosyanın siyasətinin, təşəbbüslərinin erməni cəmiyyətində dəstəkləndiyini demək olarmı?**

- Təbii. Biz başa düşməliyik ki, Ter-Petrosyanın arxasında ən azı ziyalıların bir qismi dayanıb. Burada elitanın regional mənsubiyyəti də çox vacibdir. Çünki hakimiyyətdə olan qarabağlılardır. Amma istər-istəməz Levon Ter-Petrosyan məhz Ermənistanın ziyalı elitasını təmsil edir. Bu gərginlik mənbəyi Ermənistanda həmişə mövcud idi.

**- Elə isə qarşıdakı parlament seçkilərində Ermənistanın yerli əhalisi özünə gəlib "Qarabağ klanı"ndan yaxa qurtarmaq istəyəcəkmi?**

- Mənə elə gəlir ki, burada üçüncü qüvvələrin rolu çox vacibdir.

**- Cəmiyyət yenə prosesi seyr edəcək?**

- İlk dəfə deyil ki. Əslinə qalsa, onlar özlərini uduzan tərəf kimi göstərmək istəyirlər. Amma əslində uduzmayıblar. Sadəcə olaraq onların tamahı çox böyükdür. Sərkisyanın mövqeyini analiz etsək, o, nəinki Dağlıq Qarabağı nəzarətdə saxlamaq istəyir, hətta işğal altındakı digər əraziləri də "DQR"-in sərhədləri daxilinə qatmağa çalışır. Hamı başa düşür ki, bu tamah ilbəil artır. Amma bunu təmin edən mexanizmlər, iqtisadiyyat, müdafiə, demoqrafik imkanlar Ter-Petrosyanın dediyi kimi, ilbəil tükənir, böhran yaranır. Keçmiş prezident də deyir ki, tamah artır, hətta "Araz-Kür Respublikası" barədə danışırlar, amma real imkanlar azalır. Onun bəyanatının fəlsəfəsi bundan ibarətdir. Təəssüflər olsun ki, burada vasitəçilərin rolu zəifləyir. Məhz ona görə də bayaq qeyd etdiyim kimi bizim xarici işlər səviyyəsində verilən rəsmi bəyanatlar gərək konkret və məntiqli olsun.

**- Üçüncü qüvvələr sülh prosesinə dəstək vermirlərsə, deməli, növbəti il üçün savaş gözləntisi tam realdır, elə deyilmi?**

- Çox şey üçüncü qüvvələrdən asılıdır. Əgər bu vəziyyətdən, Ter-Petrosyanın bu addımından lazımi şəkildə istifadə olunsa, proseslər müharibə təhlükəsindən uzaqlaşa bilər. Yəni bu, bir şansdır.

**- Ter-Petrosyan bəyanatlarından nə dərəcədə səmimidir? Bəlkə biz onun seçkilərə hesablanmış gedişlərini birtərəfli qaydada çox şişirdirik?**

- Təbii ki. Heç də yaddan çıxartmamalıyıq ki, Ter-Petrosyan ermənilərin ağıllı millətçisidir. Bu işğallar onun prezidentliyi zamanı həyata keçirilib, Xocalı soyqırımı baş verib və s. Bu baxımdan bir siyasətçi kimi daha təcrübəli, daha ağıllıdır. Bu da öz növbəsində bizə təhlükələr yaradır. Sadəcə olaraq Sərkisyan il-ildən, gün-gündən artan tamahını göstərir, populist mövqedən çıxış edir. Amma Ter-Petrosyan realist mövqeyini nümayiş etdirir. Təbii ki, ermənilərin realist mövqeyini. Yəni orda da təhlükələr var...

❑ Elşad PAŞASOY



# "Xəlifənin gənc əsgərləri" Avropaya qarşı

## İŞİD ən təhlükəli silahını - yeniyetmə terrorçuları meydana çıxarır

**Avropada son həftədə bir neçə terror aktı baş verdi. Berlində yük maşınının 12 nəfəri öldürməsi, Sürixdə məscidə hücum hadisəsi Avropada Yeni il günlərində yenidən terror olacağı ilə bağlı iddialara səbəb olub. Belçika polisi isə Yeni il yarmarkası zamanı terror törətməyə hazırlaşan 10 nəfər azyaşlını həbs edib. Belçika krallığının nümayəndəsi Erik Van Der Sipt deyib ki, saxlanılan azyaşlılar terror təşkilatları tərəfindən ələ alınıblar.**

Media yazır ki, uşaqlar internet vasitəsi ilə terrorçulardan insanın necə öldürülməsi və bombanın necə hazırlanması barədə təlimatlar alıblar. Agentliyin yazdığına görə, hazırda İŞİD terrorçuları Avropada terror aktları törətmək üçün müsəlman uşaqları ələ almağa və onlara təlim verməyə başlayıblar. Almaniyanın "Der Spiegel" nəşrinin yazdığına görə, Lyudviqshafen şəhərində də 12 yaşlı uşaq saxlanılıb. O da yeni il yarmarkasında terror aktı törətməyə istəyib, ancaq azyaşlı partlayıcını işə salmaq istəyib, amma o işləməyib. Bildirilir ki, azyaşlı İŞİD tərəfindən təlimləndirilib.

Qeyd edək ki, bu məlumatlar terror təşkilatlarının Avropanı hədəfə almasını göstərməklə yanaşı, eyni zamanda daha fərqli üsullara əl atdıqlarını göstərir. Buna qədər ilk vaxtlar kamikadze-terrorçular özləri gedib haranısa partladır və ya silahlı hücum törədir. Daha sonra şübhə çəkməmək üçün qadınları bu işə cəlb etdilər və bir müddət diqqət çəkməyən qadın terrorçular partlayış törədirdi. Ancaq indi görünür ki, terrorçular qadınlara da nəzarət artdığı üçün uşaqları cəlb edirlər.

Xatırladaq ki, bir müddət əvvəl İŞİD "Xəlifənin gənc əsgərləri" adlı uşaq proqramı başladıb. İnternetdə yayılan video və fotolarda yaşları 15-dən az olan yeniyetmələrin hərbi təlim aldığı, dini dərslərə cəlb olunduğu görünür. Gənclər burda cihad və şəhadət təlimləri alır.

Amerikalıların hesabatına əsasən, İŞİD-in daha əvvəl malik olduğu ərazilərdə xeyli sayda uşağı öz cərgələrinə qatmaq imkanı var. Suriya İnsan Haqları Müşahidə Təşkilatı isə 2015-ci ildə İŞİD-in 1500 uşağı əsgər kimi istifadə etdiyini açıqlayıb. Təşkilatın hesabatına əsasən, İŞİD ələ keçirdiyi yerlərdə təhsili yasaqlayır və uşaqlara daha çox özlərinin təlimlərini verir. Bu təlimlərdə uşaqlara cihad və terror təlim keçilir, uşaqları bu istiqamətdə təşviq olunur.

Yeri gəlmişkən, Almaniya kəşfiyyatı da İŞİD-in yetişdirdiyi uşaq terrorçulardan Avropada terror törədə biləcəyi ilə bağlı xəbərdarlıq edib. Oxşar xəbərdarlıqla ABŞ hökumət rəsmiləri də çıxış edib. Xüsusən də son olaraq Mosul əməliyyatı zamanı İŞİD-in həyata keçirdiyi "canlı bomba" terror aktlarının bir çoxunu yeniyetmələr törədib.

Türkiyədə və İraqda ələ keçən yeniyetmələrin bir çoxu İŞİD-in əlinə keçmələri, cəlb olunduqları təlimlər barədə məlumat verib. Xüsusi evlərə toplanan yeniyetmələrə "dini təlimlər" və silahla rəftar, fiziki hazırlıq dərsləri keçilir. Daha sonra onların bir qismi, daha uyğun olanlar ayrılaraq savaşçı olaraq seçilir və "cihada", "şəhadətə" yönləndrilir. Uşaqlardan bəziləri qorxudan özünü partlada bilmir və ya qaçaraq hökumət qüvvələrinə təslim olur. Bir hissəsi isə təlimatı icra edib partlayış törədə bilmir. Ancaq qeyd olunduğu kimi bir çox partlayışları məhz yeniyetmə əsgərlər törədir.

Qeyd edək ki. bir neçə gün əvvəl Dəməşq şəhəri ətrafında Polis İdarəsinə gələn 7 yaşlı qız uşağı ailəsini itirdiyini deyib və tapılması üçün polislərdən yardım istəyib. Daha sonra ayaqyoluna gedən uşaq özünü partladıb. Bu hadisədən bir neçə gün sonra internetdə yayılan videoda müxaliflərdən biri azyaşlı qızlarına şəhadətdən və özləri fəda etməkdən danışırdı. Videodakı qızlardan birinin Dəməşqdə özünü partlatdığı uşaq olduğu haqda iddialar var. Terrora uşaqların cəlb olunması qeyri-insani və vəhşicəsinə olduğu qədər təhlükəlidir. Çünki bu yaşda uşaqlar diqqət cəlb etmir, adətən yoxlamalara məruz qalmırlar. Bu isə terror riskini daha da çoxaldır.

**Xatırladaq ki, Avropa araşdırma mərkəzlərinin məlumatına əsasən Suriya və İraqdan Avropaya mühacirət edənlər arasında 5 minə yaxın İŞİD və digər terrorçu qrup üzvü var. Bu insanların bir qisminin qaçqınlar arasında məqsədli şəkildə yerləşərək terror məqsədi ilə Avropaya getdiyi iddia olunur.**

❑ Kənan RÖVŞƏNOĞLU

# Qaz və işığın limitinin artırılması ilə əhali ildə təqribən 44 manat qənaət edəcək

“Elektrik enerjisi və təbii qazın limiti ailə üzvlərinin sayına görə müəyyən olunmalıdır”



Qubad İbadoğlu

Azərbaycanda elektrik enerjisi və təbii qazın istifadəsində tətbiq olunan güzəştli limit artırılıb. Bu qərar ölkə başçısı İlham Əliyevin müvafiq tapşırığı əsasında qəbul olunub. Belə ki, təbii qazın pərakəndə satış tarifinə görə, əhali üzrə illik istehlak həcmi 1500 kubmetrdən 1700 kubmetrədək artırılıb.

Bundan başqa, əhali üzrə aylıq elektrik enerjisi istehlakı üzrə limit 250 kilovat-saatdan 300 kilovat-saatadək artıb.

Qeyd edək ki, ölkə başçısının bu addımı öncədən gözlənilən idi. “Yeni Müsavat” olaraq biz də bir neçə dəfə bu məsələyə toxunaraq limitlərin atırılacağı məsələsini gündəmə gətirmişdik.

**Həmçinin Tarif Şurasının bu qərarı verdiyi ərəfədə redaksiyamızın qonağı olan deputat Adil Əliyev də bu qərarda müəyyən korrektələr olacağını, dövlət rəsmilərinin müəyyən dəyişikliklər edəcəyini açıqlamışdı. O bildirmişdi ki, dövlət rəsmilərinin bu qərarla bağlı son sözü olacaq:** “Tarif Şurası müstəqil bir təşkilat kimi müxtəlif sahələrlə bağlı müəyyən araşdırmalardan sonra qərarlar qəbul edə bilir. Bu qərarları qəbul etdikdə nə Milli Məclis, nə də millət vəkilləri ilə məsləhətləşirlər. Onun üçün də dövlət rəsmiləri, aidiyyəti insanlar bununla bağlı açıqlama verəcəklər. Qərar yeni qəbul olunub, amma açıqlamalar olacaq, olmalıdır. Bu açıqlamalar xalqın, millətin xeyrinə olmalıdır. Biz bu açıqlamaları aidiyyəti qurum və təşkilatlardan, insanlardan gözləyirik. Korrektə ola bilər. Başqa sahələrdə də adekvat addımlar atıla bilər. Maaşlar qaldırıla bilər, məsələn. Hesab edirəm ki, bu çətin zamanda, manatın devalvasiyaya uğramasından sonra qiymətlərin qaldırılmasının çox təhlükəli məqam olduğunu Tarif Şurası gözəl anlayır, başa düşür. Onun üçün də mütləq dövlət rəsmilərinin bu barədə münasibəti olacaq”.

**Elektrik enerjisi və təbii qazın istifadəsində tətbiq olunan güzəştli limitin artırılmasına münasibət bildirən iqtisadçı ekspert Qubad İbadoğlu** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu qərarla normadan artıq qaz istehlak edənlərin illik xərci 20 manat, elektrik enerjisi istehlak edənlərin illik xərci isə 24 manat azalacaq: “Mən Tarif Şurasının birinci qərarından sonra təklif etmişdim ki, elektrik enerjisi üçün diferensiallaşma norması ailə üzvlərinin sayı ilə əlaqələndirilməli və 2 nəfərlik ailə üçün bu norma 300 kilovat-saatdan başlamalıdır”.

**Bu sahədə xarici təcrübəyə toxunan iqtisadçı qeyd etdi ki, Gürcüstanda da bahalı tarif 300 kilovat-saatdan səviyyəsindən başlayır, Qırğızıstanda aşağı tarifin maksimum norması 700 kilovat-saatdır:** “Türkmənistanda isə hər ay adambaşına 35 kilovatt, 1 ailə üçün minimal olaraq isə 100 kilovatt elektrik enerjisi pulsuz verilir. Əhali qrupu üçün Qırğızıstanda 1 kilovat elektrik enerjisi 1,1 sent, Qazaxıstanda 4,7 sent, Azərbaycanda isə yuxarı tarif üzrə 6,3 sentdir. Tarif Şurasının qərarına korrektə edərək qaz və elektrik enerjisi üçün diferensiallaşma normaları dəyişdiyi halda qiymətlərin sabit saxlanılması onu göstərir ki, digər enerji bazarlarında da tariflərin artırılacaq”.

**Qubad İbadoğlunun fikrincə, diferensiallaşma müxtəlif əsaslar üzrə aparılmalıdır, o cümlədən gecə və gündüz tarifləri fərqli olmalıdır:** “Gecə və gündüz istehlakçılarının hər ikisinin eyni qiyməti ödəməsi ədalətli deyil. O baxımdan bu tariflər fərqləndirilməlidir. Həmçinin mən hesab edirəm ki, bu limit ailə üzvlərinin sayına uyun müəyyən edilməlidir. 2 uşağı olan ailə üçün də 300 kv/s, 4 uşağı olan ailə üçün də 300 kv/s elektrik limiti tətbiq olunursa bu sosial baxımdan ədalətli yanaşma deyil. Çünki o ailələrin istehlakı fərqlidir. Əks halda bu qərarlar ailənin digər xərclərinin azaldılmasına, təhsil və səhiyyə xərclərinin minimuma enməsinə səbəb ola bilər ki, bu da həmin uşaqların gələcəyini sual altında qoyur. Elə ailələr var ki, qənaət etmək üçün kompüter və televizordan az istifadə edirlər. Bu da ailə üzvlərinin düşüncə baxımından geri qalmasına səbəb olan bilər. Gecə və gündüz istehlakçıları üçün tariflər fərqli olmalıdır. Ailə üzvlərinin sayına görə limit fərqli olmalıdır. Eyni zamanda qış və yay mövsümləri üçün limit fərqli müəyyənləşdirilməlidir. Azərbaycan hökuməti bunu məcburi köçkünlərə münasibətdə tətbiq edir. Eyni yanaşmanı əhali qrupu üçün də tətbiq etmək olar”.

❑ Nərgiz LİFTİYEVA

---

**Paytaxt Bakının baş planı açıqlanıb. Baş planın 2035-ci ilədək planlaşdırılması nəzərdə tutulub və astronomik məbləğ- 283,97 milyard manat həcmində dəyərləndirilir. Həmin vəsaitlərin mənbəyi isə göstərilməyib. Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov bildirib ki, Bakı şəhərinin Ərazidən İstifadə və Zonalaşdırma Planına *(Baş Plan)* əsasən, 2035-ci ilədək 121 min 919 binanın sökülməsi nəzərdə tutulub.**



# Bakının Baş Planı - 283 milyardı haradan alaq...

## Ekspertlər layihənin məbləğini fantastik və tapılmasını mümkünsüz hesab edirlər

O bildirib ki, Bakı şəhərinin Ərazidən İstifadə və Zonalaşdırma Planına əsasən yaşayış ərazilərinin yenidən qurulması səbəbi ilə 45 min 76, yolların yenidən qurulması ilə bağlı 20 min 640, yeni yolların salınması səbəbi ilə 16 min 553, dəmir yollarının sanitar-mühafizə zonasının yaradılması ilə bağlı 9109, təbii fəlakət riski olan ərazilər səbəbi ilə 1089, dövlət əhəmiyyətli obyektlərin tikintisi ilə bağlı 15 min 25, mühəndis xətlərinin sanitar-mühafizə zonaları səbəbi ilə 1374, su hövzələrinin sanitar-mühafizə zonaları ilə bağlı 3342, digər səbəblərlə əlaqədar 9711 binanın sökülməsi planlaşdırılıb.

Layihəyə əsasən, Bakı və Abşeron 9 zonaya bölünür: Cənub, Şimal, Şərq, Mərkəzi və beş periferiya. Hər zonanın öz mərkəzi olacaq. Plan 248 min hektar sahəni əhatə edir. Planda 2035-ci ilədək paytaxtın mənzil fondunun sahəsi 97,78 mln. kv/metr göstərilib. Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov bildirib ki, layihənin gerçəkləşdirilməsi ilə əlaqədar Bakıda 122 min bina sökülərək və köçürüləcək: “Binaların sökülməsi bütün paytaxt ərazisində hər yerdə aparılacaq”. Maştağa qəsəbəsi ilə bağlı “Sakit şəhər” konsepsiyasının reallaşdırılması nəzərdə tutulur. Ancaq bunun nə olduğunu açıqlamayıb.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, açıqlanan rəqəm manatladır: “Layihə 283,97 milyard manat həcmində dəyərləndirilir. 2035-ci ilə qədər bu qədər məbləğin lazım olduğu açıqlanıb. Amma bunun hansı kriteriyalara görə hesablanması açığı, qaranlıqdır. Yəni nəyə əsasən hesablayıblar, hansı indikatorlarla, necə hesablanıb, bu, məlum deyil. Amma bir maraqlı detal odur ki, həmin dövrə qədər, yəni manatın məzənnəsi hansı səviyyədə olacaq, bu da bilinmir. Ola bilər ki, bu məbləğ o dövrdə cəmi 20-30 milyard dollar olsun. Dollar ekvivalentində də bilmək olmaz ki, sonuc etibarı ilə hansı rəqəm olacaq. Amma təbii ki, Bakının baş planının təsdiqi indi aktual deyil. Bu, 2000-ci illərin əvvəllərində baş verməli idi. Böyük neft pulları gələn dövrdə planlı şəkildə Bakının baş planı təsdiq olunub, paytaxt qurulsaydı, planlı şəkildə tikinti işləri aparılsaydı, yağış suları, kanalizasiya ilə bağlı problemlər, tıxaclarla bağlı məsələlər, digər önəmli məsələlər də gündəmdən çıxmış olardı. Çox təəssüf ki, Azərbaycanda həmin dövrdə 130 milyard dollara yaxın, indiki məzənnə ilə 200 milyard manata yaxın vəsait daxil olub. O vəsaitin xərclənməsindən sonra vizual effektdən, mərkəzin gözəlləşməsindən başqa digər ciddi, insitusional effekt olmadı. Harada belə bir qarantiya var ki, bundan sonra yüz milyardlarla vəsait xərclənsə, ciddi effekt olacaq? Problem idarəetmənin özündə yaranmış problemdir. Böyük neft pulları dövründə baş plan qəbul olunsaydı, vəziyyət belə olmazdı. Bu barədə 90-cı illərdən söhbət gedirdi. 2000-ci ildə bu baş plana uyğun tikinti aparılsaydı, Bakının durumu indiki hala gəlməzdi. Bakıda bir çox kommunal problemlər öz həllini tapardı. İndidən sonra Bakının baş planını qəbul etmək və müəyən düzəlişlər aparmaq Bakının altını üstünə çevirmək kimi bir işdir. Çox böyük problemlərlə qarşılaşacağıq”.

**Ekspertin sözlərinə görə, məsələnin ikinci tərəfi maliyyə məsələsidir:** “Azərbaycanın getdikcə maliyyə resursları tükənir, büdcəmiz kiçilir, gəlirlərimiz azalır, Azərbaycan böyük borclanmalara gedir. Son dövrlərdə borclanma sürəti artır. Bu illər ərzində, yaxın 20 il ərzində Azərbaycanda gəlirlər haradan olacaq ki, on milyardlarla vəsait Bakının yenidən qurulmasına xərclənsin? Bu mənbə tapılmalıdır. Bu mənbə iki cür ola bilər, ya dövlət hesabına, ya investorlar hesabına ola bilər. Son illər aparılan işlərin böyük əksəriyyəti dövlət vəsaiti hesabına olub. Burada bir sıra problemlər var. Ya da xüsusi investorlar hesabına olmalıdır ki, məsələn, Dubay kimi şəhərdə xarici investorların birbaşa iştirakı ilə, şərikli iştirakı ilə yenidən şəhərsalma prosesi gedir. Xarici investorları Bakıya cəlb etmək üçün də çox böyük işlər görülməlidir. investisiya mühiti yaxşılaşdırılmalıdır, Bakının cəlbediciliyi artırılmalıdır. Bununla da bağlı illərdir danışıqlar, söhbətlər gedir. Amma irəliləyiş yoxdur. Əslində rəqəmin özü də, bu planın özü da fantastik görünür. Yaxın gələcəkdə bunun həyata keçirilməsi perspektivləri çox təəssüf ki, yoxdur. Yeni Azərbaycanın özünün dövlət olaraq bu qədər vəsaiti tapması və investisiya şəklində qoyması yaxın gələcəkdə mümkünsüz görünür. Həm büdcəmiz azalır, həm gəlirlərimiz azalır. Dollar ekvivalentində 2017-ci ilin büdcəsi ilə on il keçmişə qayıtmışıq. On il əvvəlin- 2007-08-ci ilin büdcəsi qədərdir. Bizdə büdcə azalıb, büdcə daxilolmaları azalır, gəlirlər azalır, bunun fonunda belə iddialı layihə ilə çıxış etmək sadəcə fantastik görsənir və həyata keçirilməsi mümkünsüz görünür”.

**Bakı şəhər İcra Hakimiyyətindən isə APA-ya bildirilib ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və qurum yanında “Bakıdövlətlayihə” İnstitutu tərəfindən hazırlanmış “Bakı şəhərinin Ərazidən İstifadə Zonalaşdırma Planı/Baş plan” layihəsində Bakının sosial-iqtisadi inkişafının bir çox istiqamətləri öz əksini düzgün tapmayıb. “Belə ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında ”Bakıdövlətlayihə" İnstitutunun direktoru İlqar İsbatov jurnalistlərə verdiyi açıqlamasında bəzi məqamlar (Abşeron yarımadasında Ələt qəsəbəsi ərazisində ikinci sərnişin hava limanının tikilməsi, Xırdalan şəhərində metropolitenin yeni stansiyasının inşası, çoxlu sayda yaşayış evlərinin sökülməsi və s.) reallıqdan uzaqdır və tam əsassızdır. Bu layihələr heç bir aidiyyəti dövlət qurumu ilə razılaşdırılmamış, lazımi ekspertizadan keçirilməmiş və ölkə rəhbərliyinə məruzə edilməmişdir. Beləliklə, Bakı şəhər İcra Hakimiyyəti bəyan edir ki, təqdim edilən layihə rəsmi sənəd kimi qəbul edilə bilməz",- deyə açıqlamada bildirilir.**

❑ RÖYA

YENİ MÜSAVAT
N 286 (6608) 24 dekabr 2016

**Prezidentlərin yemək zövqləri medianın ən çox sevdiyi mövzulardan olub. Daha çox onların keçmiş aşpazlarını danışdırmaq imkanı qazanan jurnalistlər üçün belə yazılar göydəndüşmə olur. Oxucu da maraqla oxuyur. Bəs necə? Sən demə, dünyanın lider ölkəsini idarə edən prezident də sıradan insanlar kimi lobya şorbası sevirmiş... Elə bu ortaq zövqün yaratdığı sevinc nəyə desəz dəyər...**

# Prezidentlər onların çörəyini yeyir...

## Dünya liderlərinin aşpazları onların menyusunu, yemək sirlərini açıqlayır



### Bu prezidentlər zəhərlənməkdən o qədər qorxur ki...

Söhbəti uzatmadan faktlara keçək. Rusiya prezidenti Vladimir Putinin ən çox nədən qorxduğu və ehtiyat etdiyi açıqlanıb. Belə ki, dünyanın bir sıra müxtəlif liderləri üçün yemək hazırlayan ən yaxşı baş aşpazların elitar Klubu "Club des Chefs des Chefs"in banisi Jil Braqar Rusiya liderinin qorxusu haqda danışıb. Onun sözlərinə görə, Vladimir Putin ən çox zəhərlənmədən ehtiyat edir. Bu səbəbdən də Putinin göstərişi ilə ixtisaslaşdırılmış dequstatorlar- həkim və aşpazlar məcburi qaydada onun yeməklərini yoxlayırlar.

Jil Braqar Rusiya prezidentinin mətbəx sirrlərini Britaniyanın "The Daily Mail" qəzetinə Parisdə iclas zamanı açıqlayıb. "Dequstator xidmətçiləri bu vaxta qədər var, ancaq onlar təkcə Kremldə qalıb: orada həkim aşpaz ilə hər bir yeməyi yoxlayır",- deyə o qeyd edib.

Xatırladaq ki, zəhərlənmə ilə bağlı şayiələr hələ o vaxt SSRİ rəhbəri İosif Stalinin dövründə də gəzirdi. Diktator da hər bir xörəyini yoxlanılmamış yemirdi.

Lakin yeməkdən zəhərlənmə qorxusunu təkcə Putin yaşamır. Aşpazın sözlərinə görə, Amerikanın iki sabiq prezidenti - oğul Corc Buş və Bill Klinton da Londona səfərləri zamanı Federal Təhqiqatlar Bürosuna bütün yeməklərin yoxlanılmasını tapşırmışdılar. Braqar deyir ki, Birləşmiş Ştatlar liderləri qeyri-Amerika mətbəxinə xüsusi şübhə ilə yanaşırlar. Belə ki, Hillari Klinton həyat yoldaşının prezidentlik müddətində Ağ Evin fransız aşpazının yeməyini bəyənmədiyi üçün onu işindən azad etmişdi. Jil Braqar deyib ki, həmin aşpaz işindən yeməkləri çox yağlı bişirdiyi üçün qovulub.

### Dünya prezidentləri aşpazları bir araya gəlib - niyə baş aşpazlar arasında G20 zirvəsi olmasın?

İki ay bundan öncə isə dünya ölkələri prezidentlərinin şəxsi aşpazları Hindistanın paytaxtı Dehlidə keçirilən qurultayda bir araya gəliblər. Qurultay öncəsində Hindistanın baş naziri Narendra Modi özü şəxsən Obamanın baş aşpazı Kristeta Kromfort və Böyük Britaniya şahzadəsi II Yelizavetanın şəxsi aşpazı Mark Flenaqanın da olduğu baş aşpazları salamlayıb.

"Dünya liderləri G-20 sammitlərində onsuz da tez-tez bir araya gəlirlər, görüşürlər. Mən də qərar verdim ki, baş aşpazlar arasında niyə G20 zirvəsi yaratmayaq?!" - Narendra Modi deyib.

### Aşpazlar sirri açanda - biri ilbiz və kələm turşusu sevir, o biri yeni dad kəşfini tələb edirmiş

Fransa prezidentlərinin baş aşpazı olan Bernard Vossion Yelisey Sarayında başına gələnlərdən danışıb. 40 ildir fransız prezidentləri yedizdirən aşpaz "Le Parisien" qəzetinə onların yemək menyülərindən danışıb. Vossion verdiyi açıqlamasında keçmiş prezident Fransua Mitteranın dəniz məhsullarını sevdiyini deyib: "Jak Şirak ilbiz və kələm turşusu sevirdi. Bunları da pivəsiz yeməzdi. Nikola Sarkozi isə pendiri menyudan çıxarmışdı, amma şokoladı sevirdi".

Baş aşpaz son vaxtlar ölkənin iqtisadi vəziyyəti ilə bağlı tənqid olunan indiki prezident Fransua Ollandın isə xüsusi yemək menyusunun olmadığını deyib: "Heç bir yeməyi ayırmır. Toyuq, dana, göyərti, pendir və s. nə gəldi yeyir". Fransua Ollanda Nikola Sarkozidən fərqli olaraq, ənginarı sevmir. Xatırladaq ki, Sarkozinin sevimli yeməkləri makaron və ənginar, qara trüfel idi. Sarkozi yeməklə çaxır içməyi xoşlayırdı. O, şimali koreyalı həmkarından fərqli olaraq pendiri heç sevmir. Hakimiyyəti dönəmində Sarkozi Yelisey Sarayının yaxınlığında yerləşən Le Bristol adlı restoranda yemək yeyirdi. Həmin vaxt onun sevimli yeməyinin qiyməti 82 avro idi. Amma Sarkozi Kim Çen İndən fərqli olaraq, pendirə nifrət edir.

Ən fərqli yemək zövqü olan Fransanın keçmiş prezidenti Fransua Mitterandır. O, delikatesə üstünlük verib, mətbəxində yeni dadların kəşfini tələb edirmiş.

### Putinin kaprizləri, Merkelin evdar qadın ədaları

Rusiya prezidenti Vladimir Putinin yemək zövqü barədə məlumat bir qədər azdır. Bir dəfə özü müsahibəsində bildirmişdi ki, yemək məsələsində ciddi kaprizləri yoxdur. "Əgər ət və balıq arasında seçim varsa, balığa üstünlük verirəm. Ətlərdən isə qoyun ətini seçirəm. Şirniyyata qarşı ümumiyyətlə, laqeydəm, təbii ki, dondurmanı nəzərə almasaq. Nə vaxtsa harasa səfər edirəmsə, böyük məmnuniyyətlə yerli mətbəxin dadına baxıram. Çoxdan bəri yaşıl çaya öyrəşmişəm". Bunu da özü müsahibəsində deyib.

2012-ci ildə Putin NTV jurnalistləri ilə səhər yeməyi yeyəndə məlum olmuşdu ki, Rusiya prezidenti səhərlər kəsmiklə bal yeyir, bildirçin yumurtası içir. Bundan başqa, Putin xüsusi reseptlə hazırlanmış kokteyl içir.

2010-cu ildə Kremlin baş aşpazı Anatoli Qalkin Putinin içkilərdən şərab və pivəyə üstünlük verdiyini deyib. Bundan başqa, Qalkin rəsmi tədbirlərdə təqdim edilən kokteylin reseptini də açıqlayıb. Onun tərkibində buz, limon suyu, sirop və 50 qram şampan olub. Aşpazın sözlərinə görə, belə içki "istini inanılmaz dərəcədə azaldır".

Almaniya kansleri Angela Merkeldən danışanda isə yemək xüsusi olaraq dəyər qazanır. Çünki o, yemək zövqü barədə danışmağı çox sevir. Bundan başqa, boş vaxtlarında özü də yemək bişirir. Onun ən yaxşı bacardığı yeməklər arasında kartof şorbası, balıq yeməkləri və şnisel (kotletə oxşar xörək) yer alır. Milad bayramında isə kartof salatı hazırlayıb, qaz qızardır.

Kanslerin sevimli məhsullarısiyahısında kələmli donuz kolbasası da var. Merkelin şəxsi aşpazının sözlərinə görə, o, pendiri çox sevir və siyasətçilərin çoxu kimi çaxır içir.





### Ağ evdə 7, kremldə 20 aşpaz çalışır...

Ağ Evin mətbəxində şef aşpaza 7 nəfər kulinar yardım edir. Müqayisə üçün deyək ki, Kremlin mətbəxində 20 kulinar çalışır. Şef aşpazdan başqa, qalanların hamısı rusdur. Kiçik Corc Buş qurman kimi tanınmasa da, hər zaman bifşteks və Texas-Meksika mətbəxini tərcih edirdi. Obamanın həyat yoldaşı isə sağlam qidalanma prinsipinə önəm verir, Ağ Evin həyətində onun xüsusi bostanı var. Orada təzə tərəvəz və meyvələr yetişdirilib.

### "Bu, mənim ehtirasımdır"

Dünyaca məşhur aşpaz Kristet Bernand deyib ki, ümumiyyətlə, prezidentlərlə işləmək çox çətindir. Bu, daimi stresdə olmaq və prezidenti bir qayda olaraq təəccübləndirmək öhdəliyi deməkdir: "Məsələn, Nikola Sarkozi hər zaman yeməklərin təqdim olunma formasına önəm verirdi. Masaya birinci nəyi təqdim etməyi özü tapşırırdı".

Kanadanın baş nazirinin şef aşpazı isə işinin gerçək fanatıdır. Onun adı Timoti Vasilkodur. Əslən ukraynalıdır və təkcə işdə yox, evdə də yemək hazırlamağı sevir: "Bu, mənim ehtirasımdır. Mən evdə də öz sevimli ailəm üçün yemək hazırlayıram və bundan zövq alıram".

Dmitri Medvedyevin fransız aşpazı Jerom Riqo isə iş xaricində yemək bişirməyi tərcih etmir.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 illik aşpazı Cüneyt Asan isə onun yemək seçimində kaprizli olmadığını deyir: "Yemək seçimində heç kaprizi yoxdur. Onsuz da həkim nəzarəti ilə qidalanır. Sağlam olması üçün onun yeməklərinə diqqət edilməlidir. Bütün yeməkləri də həkim nəzarəti altında hazırlanır. Biz də onun yeməklərinə, menyusuna çox diqqət edirik. Amma əsasən, ət yeməyini sevir. Hələ baş nazir olduğu vaxtdan ətlə bağlı menyunu mən hazırlayıram. Ərdoğan bəyin özünün də çox zaman xüsusi sifarişləri olur. Əsasən bizim hazırladığımız sosiskaları çox sevir. Onun sevmədiyi yeməyi bilmirəm, amma ən çox antrikotu və quzu ətini sevir. Bu aralar özünü bir az narahat hiss edirdi. Lakin indi sağlamlığı yerindədir, heç bir problem yoxdur. Amma təbii ki, həkim nəzarəti altında pəhriz saxlayır. Hər şey yeyə bilməz. Ona görə də nə vaxt nə yeməyini həkimlər məsləhət görürlər".

### Elçibəyin aşpazından maraqlı hekayələr

Hamıdan danışıb, milli aşpazlardan yan keçmək olmaz. "Bəyin yanında ilk işə başladığım gün mənə dedi ki, dəftər alıb qeydlərimi aparım. Mən də gedib qeyd dəftəri aldım. Amma hər günü yaza bilmirdim. Yadımdan çıxırdı. 1 ay keçmişdi. Bəy məndən soruşdu ki, yazırsanmı? Pis olmasın deyə dedim ki, hə. O deyirdi ki, vaxt gələcək həmin qeydlər lazımlı olacaq. İndi fikirləşirəm ki, davamlı qeydlər aparsaydım indi bir kitab yazmaq olardı. Elçibəy bu dünyada ancaq iztirab çəkib. Onun yanında olan bir şəxs kimi mən bütün bunları görmüşəm". Bu sözləri Əbülfəz Elçibəyin prezidentliyi dövründə onun aşpazı olmuş Hənifi Mirzəyev illər öncə "Yeni Müsavat"a müsahibəsində deyib. O, müsahibəsində bildirib ki, Əbülfəz Elçibəyin aşpazı olmaq təklifi gözlənilməz olub: "Mən kollecdə oxuyanda bəyin evinə qonaq getmişdim. Onun xanımı mənim bibim qızıdır. Ata tərəfdən də qohumluğumuz var. Qonaq getdiyim gün evdən çıxanda Bəy xanıma dedi ki, uşağa cibxərci ver, əliboş qaytarma. O vaxta qədər bir neçə dəfə evində olmuşdum. Amma yemək zövqünü bilmirdim".

Hənifi bəy öncə eks- prezidentin "qara siyahısındakı" yemək barədə bunları danışıb: "Bəy plovu heç sevməzdi. Ümumiyyətlə, az yeyən adam idi. Daha çox ağartı yeməklər, xəmir xörəkləri yeyərdi. Dolmaya çox meylli idi. Meyvələrdən ən çox əriyi sevərdi. Çox vaxt soba yeməkləri hazırlayardım".

Müsahibimiz danışır ki, Elçibəyi yemək məsələsində kaprizli adlandırmaq olmazdı. Hətta eks-prezident səhər yeməklərindən də imtina edirmiş: "Səhərlər ancaq 1 stəkan şirə, ya da çay içərdi. Günortalar iqamətgaha gələndə yeməyini administrasiyanın mətbəxində bişirib gətirərdim. O da nə olsa yeyərdi. Heç vaxt mənim bişirdiyimə "bəyənmirəm" deyə etiraz etməzdi".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

# Prokuror təcridxanada qulağını kəsib yeyən şəxsə 8 il həbs cəzası istədi



**Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz satışında təqsirləndirilən Hünər Cəfərovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.

O, H.Cəfərovun 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Proses yanvarın 6-da davam etdiriləcək.

Qeyd edək ki, Penitensiar Xidmətin yaydığı məlumata görə, Astara rayon sakini, 1982-ci il təvəllüdlü məhkum, indiyədək üç dəfə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmiş Hünər Abbasəli oğlu Cəfərov narkotik satışına və istifadəsinə görə həbs edilib.

H.Cəfərov birinci dəfə fərariliyə, ikinci dəfə hərbi hissəni özbaşına tərk etdiyinə görə həbs edilib. Üçüncü dəfə isə narkotik maddə qaçaqmalçılığına görə cəza çəkib.

H.Cəfərov dördüncü dəfə də narkotiklə tutulub. H.Cəfərov barəsində həbs-qətimkan tədbiri seçiləndən sonra apelyasiya şikayəti verib. Amma Apelyasiya Məhkəməsi rayon məhkəməsinin qərarını qüvvədə saxlayıb.

**Məhkəmənin bu qərarından narazı qalan H.Cəfərov isə etiraz əlaməti olaraq və istintaqa və məhkəməyə təzyiq göstərmək məqsədilə qulağının bir hissəsini alışqanın metal hissəsi ilə kəsib və nümayişkaranə şəkildə yeyib.**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Oğrular Bakıda liftlərə qənim kəsilib

**Bakıda oğruların budəfəki hədəfi yaşayış binaları olub. ARB TV xəbər verir ki, oğrular nə insanların təhlükəsizliyini, nə də rahatlığını düşünməyiblər. Yaxalandıqları zaman qanun da onların göz yaşlarına baxmayacaq.**

Paytaxtın Yeni Yasamal-2 yaşayış massivindəki 7 saylı binada oğurluq hadisəsi baş verib. Oğrular liftlərin ehtiyat hissələrini götürüblər. Bina sakinləri liftin xarab olduğunu fikirləşərək usta çağırıblar. Ustanın rəyi onları təəccübləndirib.

Hadisə barədə Daxili İşlər Nazirliyinin 102 zəng xidmətinə və ərazi üzrə polis bölməsinə məlumat verilib. Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Bölməsində faktla bağlı araşdırmalara başlanılıb.

Verilən məlumata görə, Dadaş Bünyadzadə küçəsindəki 13 saylı və Yeni Yasamal-1 yaşayış massivindəki 11 saylı binalardan da liftlərin ehtiyat hissələri oğurlanıb. Cinayətlərin hamısı eyni üsulla törədilib.

## Gəncədə mənzildən qadın meyiti tapıldı



**Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Gəncə şəhərində mənzildə 1 nəfərin bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

APA-nın nazirliyin saytına istinadən verdiyi xəbərə görə, Gəncə Regional Mərkəzinin xilasediciləri hadisə yerinə cəlb olunaraq mənzilə daxil olublar, Bayramova Elmira Ənvər qızının cəsədini aşkarlayıblar. Meyit aidiyyəti üzrə təhvil verilib.



## Tərtərdə iki ay əvvəl qətl törədən şəxs tutuldu

**Tərtərdə iki ay əvvəl qətl törədən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, Baş Cinayət Axtarışı İdarəsi və Tərtər Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 120-ci (Qəsdən adam öldürmə), 127-ci (Qəsdən sağlamlığa az ağır zərər vurma) və 221-ci (Xuliqanlıq) maddələri ilə axtarışda olan Səxavət Orucov tutulub.**

Qeyd edək ki, məlum hadisə oktyabrın 11-də qeydə alınıb. Tərtər rayon sakini, 33 yaşlı Səxavət Musayevin üzərində çoxsaylı kəsilmiş-deşilmiş və sınıq xəsarətləri olan meyiti rayonun Şıxarx qəsəbəsi ərazisində tapılıb.

Polis əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində S.Musayevi xüsusi amansızlıqla öldürən şəxslərin Ağdam rayon sakinləri Aqil Aslanov, Şaiq Həsənov və Səxavət Orucov olması müəyyən edilib.

## Moskvada azərbaycanlı ata və oğulu yandırdılar

**Moskvada azərbaycanlı ata və oğul içki məclisində dostları tərəfindən yandırılıb. APA-nın “Moskovskiy Komsomolets” nəşrinə istinadən verdiyi məlumata görə, hadisə dekabrın 15-də baş verib.**

Azərbaycanlı 27 yaşlı oğul və 48 yaşlı ata, həmçinin 27 yaşlı yerli sakin dostları ilə içki məclisində olarkən aralarında mübahisə düşüb və həmin şəxs onların üstünə tez alışan maye tökərək hər üçünü yandırıb. Zərərçəkmişlər 50-60 faiz yanğın xəsarəti ilə xəstəxanaya çatdırılıblar. 48 yaşlı azərbaycanlı dekabrın 19-da ölüb.

Faktla bağlı cinayət işi açılıb. Cinayətkarın tutulması istiqamətində iş aparılır.

## FHN-dən əhaliyə Yeni il xəbərdarlığı

**Fövqəladə Hallar Nazirliyi (FHN) Yeni il bayramında yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar əhaliyə müraciət edib. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, nazirlik yeni il bayramı ilə əlaqədar yanğın təhlükəsinin artacağını nəzərə alaraq əhaliyə bəzi tövsiyələrini verib.**

Müraciətdə qeyd olunub ki, evlərdə və şənlik məkanlarında bəzədilən küknar ağacı yerə möhkəm bərkidilməli, ağacın budaqları tavana və divarlara toxunmamalı, işıqlandırmada saz və standarta uyğun elektrik qurğu və cihazından istifadə edilməli, ağac tezalışan oyuncaqla bəzədilməməli, qapalı məkanda atəşfəşanlıq edilməməlidir.

**Həmçinin bayram şənliyində şənliklərin ikinci mərtəbədən yuxarıda keçirilməməli, şənlik keçirilən otağın divar, tavan və döşəməsi odadavamlı olmalı, pəncərədə dəmir barmaqlıq olmamalı, məkanın iki çıxışı olmalı, ehtiyat qapı üzərində “Çıxış” sözü yazılmış yaşıl işıqlı elektrik lövhə olmalı, otağın qapıları mütləq bayıra açılmalı, məkanda nəzərdə tutulan saydan artıq insan olmamalı, şənlikdə işıq tam söndürülməməli, şənliyə tezalışan materialdan paltar geyinilməməli, məkan ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdır.**

YENİ MÜSAVAT
N 287 (6608) 24 dekabr 2016

# "2017-ci ildə hakimiyyət islahatlara gedəcək"

## Səbuhi Rəhimli: "Xoruz ili daha gərgin keçəcək, problemlərə tez nöqtə qoymaq üçün bütün risklərə gediləcək"

**Təlatümlü 2016-cı il geridə qalır. Bəs qarşıdan gələn Xoruz ili dünyaya və ölkəmizə nələr vəd edir? Bununla bağlı tanınmış astroloq, "Qoroskop" qəzetinin baş redaktoru Səbuhi Rəhimli öz proqnozlarını "Yeni Müsavat"a açıqlayıb:**

***- Xoruz ili əslində hansı tarixdən başlayacaq?***

- Bəziləri astronomik ili yanlış olaraq yanvarın 1-i və ya martın 21-i hesab edir. Əslində isə yanvarın 1-i təqvim dəyişir, martın 21-i isə zərdüştiliyə aid milli təqvimdir. Biz əgər Çin-Şərq və 12 illik Zodiak mərhələsini nəzərdə tuturuqsa, bu həmişə 20 yanvar-19 fevral aralığına düşür. Od ünsürlü Qırmızı Xoruz ili də 2017-ci ilin 28 yanvarından 2018-ci ilin 15 fevralına qədər davam edəcək.

***- Bu il özündə hansı xüsusiyyətləri daşıyır?***

- İlk öncə bildirim ki, bu vaxta qədər heç bir Xoruz ili sakit və sülh şəraitində keçməyib: daima narahatçılıqlar, kütləvi etirazlar, siyasi çaxnaşmalar, məhəlli münaqişələr, çevrilişlər, sui-qəsdlər olub. Bu illərdə yeni-yeni liderlərin pərvəriş tapması, situasiyaların öz məcrasından çıxması, ictimai enerjinin gənclər üzərində cəmləşməsi həmişə labüd olub. Qədim Şərq astrologiyasına əsaslansaq, Xoruz təcavüzkar ildir. Kimdənsə mərhəmət gözləmək, ədalətin qələbə çalacağına inam bəsləmək boş xülyadır. Məqsədə çatmaq üçün bütün cəbhələrdə, sərt şəkildə mübarizə aparmaq lazımdır. Sükanı əldən buraxmaq, yaxud da kiməsə etibar etmək təhlükəli sonluqla bitə bilər. Hər kəs öz hüququnu bilməli, öz haqqını bütün instansiyalarda tələb etməlidir.

***- Meymun ilində dünyada xeyli təlatümlər yaşandı, gözlənilməz hadisələr baş verdi, dünyanın lider ölkəsinin başına qeyri-adi Donald Tramp gəldi. Bu proseslər Xoruz ilində də davam edəcəkmi?***

- Səhv etmirəmsə, 2002-ci ildə sizin qəzetə də açıqlamamda



bildirmişdim ki, 2003-2022-ci illər arası dünya böyük "təmirə" dayanacaq və bu "təmir" çoxlu fəsadlar törədəcək, dünyanın burulğandan keçməsinə, bəzi gizli mətləblərin aşkar olunmasına və ya əksinə, mühüm məsələlərin gizlədilməsinə xidmət edəcək. Vurğuladığım 20 illik müddətdə planetimizin nələr yaşadığına hər birimiz şahidik. 11 sentyabr ABŞ terroru ilə layihəsi hazırlanan ciddi planlar məhz 2003-cü ilin 20 martında İraqa hücumla start götürdü. Sonra Əfqanıstan, Suriya, Şimali Afrika, məxməri inqilablar gəldi gündəmə, "Taliban", "əl-Kaida", "Boko-Haram" kimi terror təşkilatlarının adını eşitdik, maliyyə böhranlarının, misli görünməmiş terrorların şahidi olduq, İŞİD bəlası, güclü dövlətlərdə böhran, Avropaya axışan milyonlardan ibarət qaçqın sellərini gördük. Qərb-Şərq, Qərb-Rusiya qarşıdurması da qorxulu nöqtəyə çatdı. Bu və digər məsələlər çoxlarına bəlli olduğu üçün üzərində çox dayanmaq istəmirəm. Yalnız onu deyə bilərəm ki, söylədiyim 20 illik prosesin ən pik nöqtəsi 2016 və 2017-ci illərdir. Hazırda biz ən gərgin və ən təhlükəli dövr yaşamaqdayıq. 2016-cı ildə baş verən, start götürən bir çox proseslər var ki, istər-istəməz öz nəticəsini yeni ildə büruzə verəcək. Deməli, qarşıdakı il daha gərgin zaman kəsiyinə çevriləcək. O ki qaldı Tramp barədə təəccübünüzə, məncə o qədər də təəccüblü deyil. Düşünürəm ki, o, Obama administrasiyasının "səhvlərini" düzəltməklə məşğul olacaq.

***- Tarixə nəzərə yetirəndə görürük ki, bundan əvvəlki Xoruz illərində bəşəriyyətin tarixini dəyişən hadisələr baş verib, məsələn, Hitler hakimiyyətə gəlib, İkinci Dünya müharibəsi başa çatıb, Xalq Cəbhəsinin hakimiyyəti süquta uğrayıb və sairə. Bəs bu il dünyada və ölkədə nələr yaşana bilər?***

- Xoruz illərində daha çox tələsik sülhlərin şahidi oluruq. Sanki problemlərə tez nöqtə qoymaq üçün bütün risklərə gedilir. İkinci Dünya müharibəsinin bitməsi də Yaponiyaya iki bomba atılması sayəsində baş verdi. Bu il də belə "tələskənliklərin" şahidi olacağıq. Çünki ötməkdə olan ildən çoxlu problemlər yarımçıq qalmaqdadır və onların əksəriyyəti təcili həllini gözləyir. Xoruz ili sırf siyasi dövr olduğu üçün daima ziddiyyətli, gözlənilməz hadisələrə rəvac verir. Tarixi xronologiyaya nəzər yetirəndə bir daha bunun şahidi oluruq.

***- O zaman deyə bilərsinizmi ötən Xoruz illərinin ziddiyyətli hadisələri hansılardır?***

- Bir tərəfdən Həzrət Əli (ə) qətlə yetirilib (661), digər tərəfdən İstanbul fəth olunub (1453); bir tərəfdən Azərbaycanı gələcəkdə bir dövlət kimi yox etmək məqsədilə Gülüstan müqaviləsi bağlanılıb (1813), digər tərəfdən Seyid Cəfər Pişəvəri Cənubi Azərbaycan Cümhuriyyətini elan edib (1945); bir tərəfdən Vahid İtaliya (1861), Monqolustan (1921), Qana (1957) dövlətləri, BMT yaradılıb (1945), digər tərəfdən Kolumbiyada, Venesuelada, Filippində (1957), Liviyada (1969), Ekvadorda, Banqladeşdə və Misirdə (1981) qanlı hakimiyyət dəyişikliyi olub. Belə hadisələri çox sadalamaq olar.

***- Bəs araşdırmanıza görə Xoruz illərində baş verən ən çox hansı hadisə bəşəriyyətə xeyirli və hansı zərərli olub?***

- Müharibə və siyasi zəfərləri qırağa qoysaq, mənim üçün 1969-cu ildə İnternetin yaranması bəşəriyyətin ən böyük zəfəri, 1981-ci ildə yayılmağa başlayan SPİD (QİÇS) xəstəliyi isə dünyamız üçün ən böyük bəladır.

***- Hakimiyyətdə hansısa dəyişikliklər gözlənilirmi?***

- Məndə doğum tarixləri olan və hesablama apardığım məmurlardan 2017-ci ildə eniş mərhələsinə düşəcək adam az deyil. Əslində ümumi gedişata əsasən bunu çoxları deyə bilər, amma məndə ümumidən başqa xüsusi gedişat da var ki, ondan yayınmaq əmsalı sıfıra bərabərdir. Lakin nüfuz və dəyəri aşağı düşən məmurların vəzifəsindən gedib-getməyəcəyi prezidentin iradəsindən asılı olduğu üçün qəti fikir söyləyə bilmərəm.

***- Bəziləri iddia edir ki, bu il bizim üçün heç də asan olmayacaq, bahalaşma daha da artacaq, ciddi sosial problemlər yaşanacaq.***

- Bunu demək üçün astroloq olmağa lüzum yoxdur. Ən azından mövcud durum bunu deməyə əsas verir. Kommunal xərclərin artması məhz yanvardan özünü göstərəcək ki, bu da ilkin narazılıqları qabardacaq. Əslində dünyanın hər yerində bahalaşma gedir, təəssüf ki, bizdəki bahalaşma çox ədalətsiz, mən deyərdim ki, allahsız gedir. Azərbaycanda ilin ikinci yarısından qismən sabitlik yaranacaq. O vaxta qədərsə hər cür hadisə gözləmək olar. Fevral ayından etibarən hakimiyyət qismən də olsa islahatlara gedəcək, hətta müstəqil qurumlarla, müxalifətlə müəyyən məsələlərdə bir araya da gələcək.

***- İlin uğurlu və uğursuz ayları hansı olacaq?***

- Ayları uğurlu-uğursuz edən insanlardır. Lakin astrologiyada ilin şanslı məqamları və tədbirli olmalı dövrləri də göstərilir. Bu baxımdan 2017-ci ildə dünya üçün yanvar və fevral uğurlu, iyul və avqust isə uğursuz aylar ola bilər.

***- Hansı Zodiak illəri üçün bu il uğurlu olacaq?***

- İlin aparıcı Zodiak illəri Xoruz, Öküz və İlan, bürcləri isə Oğlaq və Sutökəndir.

***- Yeni ildə insanlar hansı tövsiyyələrə əməl etməlidirlər?***

- Min illərin sınağından keçən astrologiyada hər bir ilin öz oyun qaydaları, yaşama üslubu və mübarizə qanunları var. Bu baxımdan deyə bilərik ki, Xoruz ilində pul qazanmaq, büdcəni rahat şəraitdə artırmaq olduqca çətindir. Bu dövrdə çoxları karyera zirvəsindən sürətlə aşağı düşür, nəticədə isə bəzən qarşıdurma meylləri də güclənir. Aşağılarla yuxarılar arasında mövcud olan sədd yırtılır. Belə hallar da xaosun meydan sulamasına rəvac verir. Qanunlar lazımi səviyyədə işləmir və ya onlara riayət olunmur. Bu illərdə pul və imkandan daha çox ağıl və analiz üstün olur. Yalnız böyük təcrübə sahibləri, taktikalı və zamanın nəbzini tutanlar qalib gəlir".

❑ **Xalidə GƏRAY**

# "Ən böyük istəyim məktəbi bitirib ailəmi axtarıb tapmaqdır"

## Təhsil Nazirliyi 2 nömrəli ümumi orta internat məktəbində Yeni İl şənliyi təşkil etdi

**Təhsil Nazirliyi valideyn himayəsindən məhrum olmuş bu uşaqları qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibəti ilə təbrik etmək, az da olsa bu körpələrin üzünü güldürmək, onlara sevinc bəxş etmək üçün dekabrın 23-də KİV nümayəndələri ilə birgə 2 nömrəli ümumi orta internat məktəbində Yeni il şənliyi təşkil etdi. Təhsil Nazirliyinin əməkdaşlarının və KİV təmsilçilərinin iştirak etdiyi şənlikdə internat məktəbi şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya, milli və xarici rəqslər, səhnəciklər nümayiş olundu. Uşaqlar Şaxta baba və Qar qızla birgə rəqs edib, mahnılar oxudular. İnternat məktəbindən içəri daxil olarkən uşaqların üzündəki həyəcanı, sevinci, bir azda kədəri görəndə kövrəlməmək mümkün deyildi.**

2 nömrəli ümumi orta internat məktəbində 162 valideyn himayəsindən məhrum olmuş uşaq var, onların 47-i qız, 115-i isə oğlandır. 152 nəfər şagird müəssisədə gecələyir. Onların təlim tərbiyəsi ilə isə 47 nəfər pedaqoq məşğul olur. Burada təhsil alan uşaqlar məktəbi bitirdikdən sonra peşə ixtisasına yönləndirilir...

Şənlik zamanı uşaqlar əylənir, rəqs edirdilər, üzlərində sevinc vardı. Ancaq elə uşaqlar da vardı ki, sanki onların cismi orada idi, ruhları yox. Üzlərinə qəribə bir kədər çökmüşdü.

O kədərin də təbii ki, bir adı var - valideyn həsrəti. Burada oxuyan bir sıra uşaqlar var ki, valideynləri onları həftə sonları gəlib aparır. Ancaq elə uşaqlar da var ki, ümumiyyətlə valideynini tanımır. Bu cür uşaqlardan biri də 7-ci sinif şagirdi Əli Əsədullayevdir. Əlinin ən böyük istəyi bir gün məktəbi bitirib ailəsini tapmaqdır: "Ailəm yoxdur. Mən bura 6 yaşımda gəlmişəm. 1-ci sinifdən burada oxuyuram. Məni qardaşım əvvəlcə "Ümid yeri"nə aparıb qoydu. O zaman qardaşımın 16-17 yaşı vardı. Mən bu internat evinə gələnə kimi "Ümid yeri"ndə gəlib məni görürdü. Amma bura heç gəlməyib. Qardaşımın harada olduğunu, ailəmin məni niyə atdığını bilmirəm. Ancaq mənim ən böyük istəyim buranı bitirib gedib ailəmi axtarıb tapmaqdır. Onları tapdığım gün mənim sevincimin həddi hüdudu olmaz. Böyüyəndə aktyor, rejissor olmaq istəyirəm. Uşaqlar Şaxta babanın sehrli







çubuğuna inanır, nələrsə arzulayırlar. Amma mən inanmıram. Mən hər şeyi Allahdan istəyirəm".

**Əlinin yanında oturan və gözləri dolan sinif yoldaşı Mehdi söhbətə qatılır və o bir telefonun olmasını çox istədiyini deyir:** "Mən istəyirəm telefonum olsun. Amma bilirəm ki, onu mənə heç kim almayacaq. Mənim bir bacım, bir qardaşım var. Bacımla biz burada qalırıq. Amma qardaşım buranı çoxdan bitirib. Həftə sonları anam məni gəlib aparır. Amma mənim üçün evimizdən də bura maraqlı gəlir. Evimizə gedəndə ürəyim darıxır. Mən həmişə burada qalmaq istəyirəm, böyüyəndə həm rəssam, həm də polkovnik olacam".

**Kənarda kefsiz oturan və heç kimə qaynayıb qarışmayan balaca bir oğlan diqqətimizi çəkdi. Adının Sənan Zamanov olduğunu deyən 7-ci sinif şagirdinin yalnız bir istəyi var- ailəsi ilə birlikdə yaşamaq:** "Yeni ildən tək istəyim evimizin olması və anam atamla orada yaşamağımdır. Başqa heç nə istəmirəm".

**3-cü sinif şagirdləri Fidan və Zəhra** isə Yeni il şənliyini çox bəyəndiklərini deyirdilər, sevinclərinin həddi hüdudu yox idi. Əksər uşaqlar Şaxta babadan onlar üçün planşet gətirmələrini arzulayırdılar.

Bir-birinə bacı, qardaş deyib səslənən bu uşaqların bir-birinə olan qayğısı, məsumluğu insanı heyrətləndirirdi.

**8-ci sinif şagirdi Cəfərov Əlinin** taleyi isə fərqlidir. O, uşaq evinə valideynləri tərəfindən qoyulmayıb. Aldığımız məlumata görə, Əlinin soyadı bilinmədiyi üçün hətta problemlər də yaşanıb. Əlinin ən böyük istəyi peşə məktəbini bitirdikdən sonra ali məktəbə daxil olmaqdır. Əli iqtisadçı olmaq istədiyini dedi.

2 nömrəli ümumi orta internat məktəbinin direktoru Dilarə Məşədiyeva məktəbdə uşaqlara xüsusi qayğı ilə yanaşdıqlarını dedi: "Arzu edirəm ki, bizim uşaqlarımızın üzü hər zaman belə gülsün. Biz də çalışaq ki, onları həmişə sevindirək. Bizim internat məktəbindən övladlığa gedən uşaqlar da olur. Hazırda 4 uşaq övladlığa vermişik. Biz uşaqları Azərbaycan vətəndaşlarına övladlığa vermişik. Məktəbimizə uşaqlar 6 yaşından qəbul edilir və 18 yaşınadək burada qalırlar. Bizim ötən il 23 məzunumuz məzun evləri ilə təmin olunub. Burada oxuyan bütün uşaqlar 9-cu sinfi bitirdikdən sonra peşə məktəblərinə yönləndirilir. Sırf kimsəsiz olan uşaqlar da məzun evləri ilə təmin olunur. Bizim internat məktəbində hər iki valideynini itirən və ya tək valideyni olan uşaqlar da var. Biz çalışırıq ki, uşaqlara valideyn sevgisini verə bilək, bu uşaqların hər şeydən çox buna ehtiyacı var".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 287 (6608) 24 dekabr 2016



## Ən çox səhvi alman həkimlər edir?

**Tibb sisteminə heyran qaldığımız ölkələrdə də insanlar həkimlərin səhvlərindən əziyyət çəkir. Almaniyanın Hamburq şəhərində təkcə 2012-ci ildə 449 xəstə həkim səhvinə görə şikayət edib. Hamburq Həkimlər Birliyinin araşdırmasına görə, yekunlaşan məhkəmə proseslərinin təxminən 23 faizində həkim səhvi təsdiqlənib və zərərə uğrayan xəstələrə təzminat ödənib. Araşdırmaya görə, alman həkimlər daha çox diz müayinələrində və qol, ayaq biləyi qırıqlarının müalicəsində səhvə yol verirlər. Doğuş zamanı yol verilən səhvlər isə araşdırmada 3-cü sırada yer alıb. Həkim səhvi ucbatından səhhətinin pisləşdiyini düşünənlər üçün Hamburqda araşdırma mərkəzləri var. Bu mərkəzlərdə bitərəf mütəxəssislər xəstəni və xəstəyə tətbiq edilən müalicələr yenidən araşdıraraq məhkəməsiz anlaşma yolunu tuturlar.**

Və bu ölkədə təkcə 2010-cu ildə həkim səhvi və tibbi məhsulların çatışmazlığı ucbatından ən azı 1712 nəfər həyatını itirib. Xüsusən də həkimlərin səhvləri ucbatından dünyasını dəyişən insanların sayında xeyli artım var. 2009-cu ildə bu rəqəm 551 nəfər idisə, 2010-cu ildə 944-ə qədər artıb. Almaniyada daha çox rast gəlinən ölüm səbəbləri arasında yetərsiz dezinfeksiya, köçürülən orqanların xəstənin bədəni tərəfindən qəbul edilməməsi və protez qoyulması zamanı üzə çıxan problemlərdir.

## 34 metrlik "qar adam" hazırladılar



**Hər il qardan hazırlanan heykəllərin nümayiş olunduğu sərgidə bu il bir ilk yaşanıb. 34-cüsü bu il keçirilən sərgidə hündürlüyü 34 metr olan "qar adam" nümayiş etdirilib. Bu barədə lenta.ru saytı UPI agentliyinə istinadən xəbər yayıb. Tədbirdən hazırlanan videodan da görünür ki, orda əjdaha formalı qar heykəli də var, qarlı qəsrlər də. Bu əsərlərin ərsəyə gəlməsi üçün 120 min kubmetr qar lazım gəlib. Çin bu sayaq təcrübələri ilə məşhurdur. Bu ilin 17 dekabrında Çinin Çançun şəhərində şokoladdan 700 heykəl hazırlanmışdı.**

## 5 dollarlıq şəraba görə 280 min dollar xərclədilər

**Britaniyada marketdən 5 butulka spirtsiz "Vimto" içkisinin oğurlanması üzrə işin istintaqına 280 min dollardan çox pul xərclənib. "The Daily Telegraph" qəzetinin xəbərinə görə, bu vəsait hüquqşünasların məsləhətlərinə və istintaqı aparan polislərin maaşlarının ödənilməsinə sərf olunub.**

Məlumatda deyilir ki, nəqliyyat polisinin iki əməkdaşı dəmir yol xəttinin kənarından içərisində 5 şüşə qazlı içki olan karton qutu tapıblar. Təlimata görə, onlar tapıntını ya itmiş, ya da oğurlanmış əmlak kimi rəsmiləşdirməliydilər. Ancaq isti havada polislər qazlı içkini öz yoldaşları ilə bölüşdürüb içiblər. Nəticədə polis içkinin oğurlanması ittihamı üzrə onlara qarşı cinayət işi qaldırıb, il yarım davam edən istintaq ərzində onları vəzifələrindən azad ediblər və hər birini 400 funt cərimələyiblər. İşin istintaqına isə böyük məbləğdə pul xərclənib. Halbuki qazl içkiləri yolun kənarından tapıb içən polislərə irad bildirmək də kifayət edərdi. Qəzet bu faktı Bitaniyada xırda qanun pozuntularına görə bəzən illərlə davam edən və böyük vəsaitlər hesabına başa gələn mənasız istintaq prosesləri nə nümunə kimi göstərir.





## Səhərlər dondurma yeyənin beyni yaxşı işləyir

**Yaponiyalı tədqiqatçıların fikrincə, səhərlər dondurma yeyən adamlar ağıl və fərasətləri ilə seçilirlər. Bu şirin təam insanların reaksiya sürətini artırır və onlarda psixi qıcıqlanmanı zəiflədir.**

Alim Yosihiko Koqanın eksperimentə cəlb etdiyi könüllülər səhərlər dondurma yeməli idi. Bu cür səhər yeməyindən sonra iştirakçılardan məntiq testlərini yerinə yetirmək xahiş olunub. Məlum olub ki, dondurma insanların reaksiya sürətini artırır və onlarda psixi qıcıqlanmanı zəiflədir.

Y.Koqa, həmçinin qeyd edib ki, dondurma yedikdən sonra insanlarda yüksək tezlikli alfa dalğaların bolluğu müşahidə olunur. Alimin gümanına görə, "yüksək döyüş hazırlığı"nı dondurmanın temperaturu yaradır.

Buna görə də o, başqa bir qrupu eksperimentə cəlb edib. Koqa iştirakçılara naharda bir stəkan soyuq su təklif edib. Bundan sonra eksperiment iştirakçıları böyük səviyyədə sayıqlıq və əqli qabiliyyət göstəriblər. Lakin onların göstəriciləri səhər yeməyində dondurma yeyənlərin göstəricilərinə yenə də çata bilməyib.




**QOÇ** - Səhhətinizi qorumağı bacarsanız, ulduzlar sizi əməlli-başlı sevindirəcək. Saat 13-15 arası maraqlı bir təklif alacağınız gözlənilir. Çalışın ki, imtina etməyəsiniz. Səfər planlarınızı bir daha götür-qoy edin.

**BUĞA** - Sağlamlığınıza fikir verin. Ulduzların düzümü fiziki xəsarətlər alacağınızı da istisna etmir. Tanış olmayan ünvanlara getməyin. Axşama yaxın sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Mübahisəli bir təqvim yaşayacaqsınız. Təmkininizi qoruya bilməsəniz, ciddi münaqişələrə də cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ailədə emosional çıxışlara son qoyun.

**XƏRÇƏNG** - Səhər saatlarında müəyyən gərginliklə üzləşmə ehtimalınız olsa da, sonrakı müddəti uğurlu keçirəcəksiniz. Yeni təkliflər alacağınız da mümkündür. Bir sözlə, sürprizlərə hazır olun.

**ŞİR** - Ümumi gərginliyiniz kifayət qədər səngiyəcək. Ünsiyyətdə olduğunuz insanlarla, ələlxüsus da həmkarlarınızla davranışlarda mülayim olun. Perspektivli təkliflər ala bilərsiniz.

**QIZ** - Yeni xəbərlər yolunuzu gözləyir. Bütün astroloji göstəricilər nahardan sonra ağlınıza gətirmədiyiniz adamların sizə sürpriz vəd edəcəyini xəbər verir. Görüşləri təxirə salmayın.

**TƏRƏZİ** - Nəzərə alın ki, ortalığa pulla bağlı problemləriniz çıxa bilər. Bu səbəbdən də adı çəkilən mövzuya kifayət qədər həssas yanaşmalısınız. Ciddi sövdələşmələrdə iştirakdan yayının.

**ƏQRƏB** - Hər mənada uğurlu gündür, bir şərtlə ki, əsəblərinizi cilovlaya biləsiniz. Yalnız xeyirli şeylər arzulayın ki, sizə də xeyir gəlsin. Fəaliyyətdə uğurlarınız arta bilər.

**OXATAN** - Göy qübbəsi varlanma ehtimalınızın yüksək olduğunu bəyan edir. Bu səbəbdən də ümid bağladığınız bütün istiqamətlərə baş vurun ki, kisəniz boş qalmasın. Yeni görüşlərdən yayınmayın.

**OĞLAQ** - Yaxşı olar ki, ağır fiziki işlərə, ümumiyyətlə, fəaliyyətə ara verəsiniz. Əsas diqqətinizi istirahətə və gəzintilərə həsr edin. Xəstə qohumlarınıza mütləq baş çəkin. Axşama doğru nəqliyyatda diqqətli olun.

**SUTÖKƏN** - Ailə üzvlərinizlə, xüsusən də sevdiyiniz adamla münasibətləri qaydasına salmaq istəyirsinizsə, güzəştə gedin. Unutmayın ki, həmişə kəsə yolla getmək olmur. Axşamsa qonaq gedin.

**BALIQLAR** - Hər ehtimala qarşı emosiyalarınızı cilovlamalısınız. Əsas enerjini biznesə həsr edin. Çünki büdcənizi artırmaq və sövdələşmələr aparmaq üçün olduqca düşərli gündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Polis sürücünü saxladı, sonra da qalstukunu bağladı



**Amerikanın Viskonsin ştatında polis gənc bir sürücünün maşınını öncə saxlayıb, ardınca isə qalstukunu bağlamasına kömək edib. Buna səbəb sürücünün kollecdəki təqdimata gecikməsi olub. Amma polisin ilkin olaraq sürücünü saxlamasına onun sürət həddini aşması səbəb olub. Cərimənini ödəyən sürücü polisdən qalstukunu bağlamasını xahiş edib, sonuncu isə heç bir tərəddüd keçirmədən bunu edib. Sözügedən video Menomonie Police Departmentin facebook səhifəsində yayımlanıb. 20 dekabrda yayımlanan videonu bu günə qədər 826 min nəfər izləyib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750